DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (353) / MART 2021-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV: MƏNİM ÜÇÜN TORPAQLARIN AZAD EDİLMƏSİNDƏN DAHA ÜMDƏ VƏZİFƏ HEÇ VAXT OLMAMIŞDIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırıblar.

Sonra dövlətimizin başçısı müraciət edib.

- Əziz bacılar və qardaşlar, mən sizin hamınızı Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm! Bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram!

Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.

Noyabrın 8-də Şuşanın azad olunması ilə bağlı müjdəni Azərbaycan xalqına verərkən demişdim ki, Şuşa, sən azadsan! Bu gün azad Şuşada biz öz milli bayramımızı – Novruz bayramını qeyd edirik. Şuşa 28 il əsarətdə idi. 28 il mənfur düşmən tərəfindən dağıdılırdı, məhv edilirdi. Şuşanın tarixi siması dağıntılara məruz qalırdı. Düşmən Şuşanı erməniləşdirmək istəyirdi. Şuşada Azərbaycan xalqının irsini silmək istəyirdi. Ancaq buna nail ola bilmədi. Bəli, Şuşa dağıntılara məruz qaldı, Şuşada tarixi abidələrimiz mənfur düşmən tərəfindən dağıdıldı. Ancaq Şuşa əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, Azərbaycanın milli ruhunu qorudu və bu gün Şuşada olarkən bir daha bunun canlı şahidi oluruq. Şuşa Azərbaycan xalqının ruhunu qoruya bildi və bizi gözləyirdi. Biz də gəlməli idik və gəlmişik. Ancaq gəlmək üçün güc toplamalı idik, gəlmək üçün hazırlıq işləri aparılmalı idi. Bütün istiqamətlər üzrə hazırlıq işləri aparılmalı idi və aparılırdı. Biz ölkəmizin inkişafını təmin etməli idik. Xalqımızın birliyini təmin etməli idik. Vətəndaş müharibəsindən çıxmış ölkə üçün, xalq üçün bu, o qədər də asan məsələ deyildi. Vətəndaş müharibəsindən sonra bu günə qədər ölkədə gedən proseslər xalqımızı vahid ideya uğrunda, vahid amal uğrunda, torpaqlarımızın azad edilməsi amalı uğrunda birləşdirdi. Biz bu milli birliyi, milli həmrəyliyi təmin edə bildik. Bu, olmasa idi, bu Qələbə də olmayacaqdı.

Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Açıq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu.

Biz güclü ordu yaratmışıq. Peşəkar ordu yaratmışıq. Qəhrəman ordu yaratmışıq. Hərbçilərimiz ən yüksək qiymətə layiqdirlər. Biz müharibə dövründə şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbir versin. Biz Şuşanı qan tökərək azad etmişik, Şuşa uğrunda ciddi döyüşlər gedirdi. Laçın dəhlizi boyunca işğalçıların qalıqları səpələnmişdi, yüzlərlə, bəlkə də minə qədər işğalçı Şuşa döyüşlərində məhv edildi. Hərbçilərimiz sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək yüngül silahlarla Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardıq. Amma bizə qarşı burada toplardan, tanklardan istifadə olundu. Amma düşmən bizim gücümüzü gördü, iradəmizi gördü, milli ruhumuzu gördü və məğlub oldu. Şuşanın azad edilməsi Vətən müharibəsində xüsusi yerə malik olan hadisədir. Şuşa bizim hədəfimiz idi və biz bu hədəfə doğru gedirdik. Şuşaya qədər azad edilmiş bütün torpaqlarda Azərbaycan Ordusunun yerləşməsi Şuşanın azad olunmasını da şərtləndirmişdi. Cəbrayıl rayonu, Suqovuşan, Hadrut, Xocavənd rayonunun böyük hissəsi, Zəngilan, Füzuli, Qubadlı rayonları, Laçın rayonunun cənub hissəsi, Kəlbəcər dağları, Murov dağı və ondan sonra Şuşa. Müharibə zamanı 300-dən çox kənd və şəhər azad edildi, düşmən məcbur oldu, diz çökdü, təslim oldu və noyabrın 10-da kapitulyasiya aktına imza atdı.

Müharibənin ilk günlərindən mən demişdim ki, düşmən bizə tarix versin, düşmənin rəhbəri tarix versin, nə vaxt bizim torpağımızdan rədd olur və biz müharibəni dayandırmağa hazırıq. Yenə də sözümdə durdum, bizə tarix verilən kimi, kapitulyasiya aktı imzalanan kimi müharibə dayandı və biz bir güllə atmadan, bir itki vermədən Ağdam, Kəlbəcər və Laçın rayonlarına da qayıtmışıq. Beləliklə, ərazi bütövlüyümüzü bərpa etdik. Yenə də deyirəm, biz hazırlaşmalı idik, Şuşa bizi gözləyirdi. Amma biz elə gəlməli idik ki, bu məsələni birdəfəlik həll edək.

Son illər ərzində mən həm çıxışlarda, həm müsahibələrdə dəfələrlə demişəm ki, bizə məsələnin yarımçıq həlli lazım deyil. Bu, nə deməkdir, Azərbaycan xalqı yəqin ki, gözəl başa düşür. Mən demişdim ki, hər şeyi vaxtında etmək lazımdır. Nəyi, nə vaxt, necə etmək lazımdır, bilirəm. Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır. Bütün prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanmışdı - bu addım bizi qələbəyə yaxınlaşdıracaqmı, yoxsa yox. Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. Mənim çıxışlarım var, onlar tarixdə qalır. Hər gün hər birimiz qələbəni yaxınlaşdırmalıyıq. Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz.

davamı səh. 2

# PREZİDENT İLHAM ƏLİYEV: MƏNİM ÜÇÜN TORPAQLARIN AZAD EDİLMƏSİNDƏN DAHA ÜMDƏ VƏZİFƏ HEÇ VAXT OLMAMIŞDIR

əvvəli səh. 1

Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib. Bəli, evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bir neçə eybəcər bina tikilib. Faktiki olaraq burada heç bir tikinti aparılmamışdır. Ancaq sovet vaxtından qalan o "xruşşovkalarda" məskunlaşmış 2 minə yaxın erməni yaşayırdı, onların da böyük hissəsi hərbçilər idi, onların ailələri idi. Əgər bu, erməni şəhəri idisə, niyə ermənilər galib burada yaşamadılar? Çünki ermənilərin tarixi yoxdur burada. Əgər erməni şəhəridirsə, niyə belə bərbad günə qoyublar? Niyə talayıblar Şuşanı, niyə 28 il ərzində bərpa etməyiblər? Bəs, hanı bunların xeyriyyəçiləri? Deyirdilər ki, xeyriyyəçilər bunu etdilər, onu etdilər, ora pul verdilər, bura pul verdilər. Hər il marafonlar keçirirdilər, on milyonlarla dollar pul yığırdılar. İndi bilinir ki, o pullar keçmiş rəhbərliyin cibinə gedirdi. Mən azad edilmiş torpaqlara dəfələrlə gəlmişəm. Burada olan səfalət bəlkə də dünyanın heç bir yerində yoxdur. Bəs, nə ediblər onlar? Hamısı yalan idi, saxta idi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Onların şəbəkələri dünyanın müxtəlif paytaxtlarında fəaliyyət göstərir, saxta məlumat ötürür və bu saxta məlumat ətrafında sonra müzakirələr gedir və olmayan şeyləri reallıq kimi qələmə verirdilər.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır.

Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq. Biz hətta o satqınlığı, o xəyanəti edən AXC-Müsavat cütlüyünün mənfur liderlərinə layiq olduqları cəzanı verməmişdik. Halbuki onlar istənilən cəzaya layiqdirlər. Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi.

Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik. Bu gün Novruz bayramını Cıdır düzündə qeyd edərkən qürur hissi ilə deyirəm: "Şuşa sən azadsan!", "Şuşa Azərbaycandır!", "Qarabağ Azərbaycandır!"

# PREZİDENT İLHAM ƏLİYEV: ONLAR BİZİM QƏDİM TORPAQLARIMIZDA ÖZLƏRİ ÜÇÜN SAXTA TARİX YARADIBLAR

Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarına səfər çərçivəsində Hünərli kəndindəki Alban məbədi ilə tanış olublar.

Prezident İlham Əliyev deyib:

- Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir. Ermənilər bu kilsəni də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin – alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar.

İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb.

Baxın, buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? Yazardılar bunları? "Kamo", "Artur", nə bilim, "Marta". Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı – "İqor", "Aşa"? Uçurublar, dağıdıblar, qapını da yandırıblar.



# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINI TƏBRİK EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Novruz bayramı münasibətilə xalqımızı təbrik edib.

Təbrikdə deyilir:

"Əziz həmvətənlər!

Novruz bayramı münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, gözəl əhval-ruhiyyə, bol sevincli və xoşbəxt anlar arzulayıram. Təbriklərə və xoş arzulara görə hər kəsə minnətdaram. Sevginizə, səmimiyyətinizə, etimadınıza, hörmət və diqqətinizə görə çox sağ olun! Qoy, təbiətin oyanması və yenilənməsinin rəmzi olan bu bayram hər birinizin ocağına sağlıq, qarşılıqlı anlaşma və əmin-amanlıq gətirsin! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin, onların doğma və yaxınlarına səbir versin. Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".

# MEHRİBAN ƏLİYEVANIN TƏŞƏBBÜSÜ İLƏ HEYDƏR ƏLİYEV FONDU VATİKANDA DÜNYA VƏ DİNİ İRSİN QORUNMASINA YENİ TÖHFƏSİNİ VERİR

Heydər Əliyev Fondunun tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələri Azərbaycanın sərhədləri ilə məhdudlaşmır. Artıq on ildən çoxdur ki, Fondun dəstəyi ilə Vatikanda mühüm tarixi əhəmiyyət daşıyan dini abidələr bərpa edilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın nəcib təşəbbüsü ilə Vatikanda bu istiqamətdə əməkdaşlığın növbəti mərhələsinin icrasına başlanılıb.



Bununla əlaqədar Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin daxil olduğu nümayəndə heyəti Vatikanda səfərdə olub.

Səfər zamanı Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Müqəddəs Arxeologiya Şurası arasında Müqəddəs Komodilya katakombalarının bərpasına dair yeni əməkdaşlıq müqaviləsi imzalanıb.

Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sədri kardinal Canfranko Ravazi imzalanma mərasimini Vatikanla Azərbaycan arasında münasibətlərdə əlamətdar hadisə kimi səciyyələndirib. Qeyd edilib ki, Heydər Əliyev Fondu və Vatikan arasında mövcud əməkdaşlıq artıq növbəti mərhələyə qədəm qoyur. Əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələrə nəzər salan kardinal üç mühüm mərhələ barədə məlumat verib və diqqətə çatdırıb ki, ilk mərhələdə Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası həyata keçirilib və bərpadan sonra Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirakı ilə ictimaiyyət üçün açılış mərasimi olub. İndi artıq ictimaiyyət möhtəşəm freskaları restavrasiya olunmuş həmin katakombaları ziyarət edə bilir.

İkinci mərhələ Müqəddəs Sebastian Bazilikasında yaradılmış muzey olub və sarkofaqların restavrasiya edilərək qorunan muzeyin təşkilində Fondun prezidenti Mehriban Əliyeva yaxından dəstək göstərib. Hazırkı üçüncü mərhələdə isə məqsəd indiyədək ictimaiyyət üçün qapalı olan Komodilya katakombalarını bərpa edərək ziyarətçilərin istifadəsinə verməkdir.

Kardinal diqqətə çatdırıb ki, Heydər Əliyev Fondu və Vatikan tərəfindən əsası qoyulan bu uğurlu əməkdaşlıq mədəni irsin qorunmasına xidmət etməklə yanaşı, eyni zamanda, dinlərarası dialoqun inkişafına öz töhfəsini verir: "Əhalisinin böyük əksəriyyəti müsəlman olan Azərbaycanın xristian mədəni irsinə böyük qayğı ilə yanaşması çox diqqətəlayiq bir məqamdır," - deyə kardinal bildirib. O, Azərbaycan nümayəndə heyətinin tərkibində ölkədəki bütün dini icmaların nümayəndələrinin də təmsil olunmasını dini müxtəlifliyə verilən yüksək qiymət kimi dəyərləndirib. Yeni əməkdaşlıq razılaşması Roma şəhərindəki katakombalardan birinin ictimaiyyət üçün açılması və bu yolla Roma şəhərinin mədəni zənginliyinə daha bir incinin əlavə olunması ilə nəticələnəcək. 2025-ci ildə Roma şəhərində Roma-katolik kilsəsi üçün xüsusi əhəmiyyət daşıyan və hər 25 ildən bir qeyd edilən "Müqəddəs il" yubiley tədbirləri keçiriləcək və "əbədi şəhər"ə dünyanın hər tərəfindən turist və zəvvarlar axışacaq. Bu isə bərpadan sonra açılacaq Komodilya katakombalarına çox sayda ziyarətçinin gəlməsinə imkan verəcəkdir: "Ona görə də biz Heydər Əliyev Fonduna dərin təşəkkürümüzü bildiririk və onu öz mədəni icmamızın tərkibində görürük, çünki Fond da bizim kimi həm mədəni, həm də dinlərarası dialoqun inkişaf məqsədlərini diqqət mərkəzində saxlayır".

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını tədbir iştirakçılarına çatdırıb. O, təxminən bir il bundan əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin Vatikana səfər etdiyini, burada görüşlər keçirildiyini qeyd edib. Bildirilib ki, Heydər Əliyev Fondunun Müqəddəs Taxt-Tacla əməkdaşlığı sayəsində dünya mədəni irsinin qorunması üzrə layihələrin həyata keçirilməsinə nail olunub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu uğurlu münasibətləri daim diqqətdə saxladığı qeyd edilib. Görüş zamanı Birinci vitse-prezident Mehriban Əliyevanın məktubu kardinal C.Ravaziyə təqdim edilib.

Məktubda bildirilir ki, birgə səylərimiz Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında ikitərəfli münasibətləri daha da möhkəmləndirir. Bu səylər qlobal səviyyədə daha çox ehtiyac duyulan mədəniyyətlərarası və dinlərarası dialoqa konkret və praktik töhfəmizi əks etdirir.

Qeyd edilir ki, Azərbaycan Heydər Əliyev Fondunun fəaliyyəti ilə ötən illər ərzində mədəni irsin bütün elementlərinin bizim üçün eyni dərəcədə əziz olduğunu nümayiş etdirib. Xristian katakombaları coğrafi, mədəni və dini məhdudiyyətlərə baxmayaraq, dünya irsinin nümunələri hesab edilir və buna görə də həmin abidələr qorunmalı və təbliğ olunmalıdır. Beləliklə, Azərbaycan Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası ilə səmərəli əməkdaşlığını davam etdirməyə hazırdır.

Məktubda bildirilir ki, Komodilla katakombalarının bərpası və mühafizəsi üzrə layihədə iştirak etməyimizə şərait yaradacaq digər bir müqavilənin imzalanması dünya mədəni irsinin qorunmasına möhkəm sadiqliyimizi bir daha təsdiqləyir. İki il ərzində həyata keçiriləcək layihənin tamamlanması bu əhəmiyyətli katakombaların ziyarətçilər üçün açılmasına şərait yaradacaq.

Daha sonra qeyd edilir ki, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə və ətraf yeddi rayonuna otuz ilə yaxın davam edən hərbi təcavüzü və işğalı nəticəsində Azərbaycanın həmin ərazilərdəki misilsiz mədəni irsinə çox böyük ziyan dəyib. Ötən il Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqları, nəhayət işğaldan azad edildikdə həmin ərazilərdəki dəhşətli dağıntıların miqyasını görmək son dərəcə ağrılı idi. Yüzlərlə tarixi abidənin – muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbiristanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunması ilə bağlı gördüyümüz reallıq gözlədiyimizdən daha pis oldu. "İndi bizim qarşımızda azad edilmiş bu torpaqların bərpa edilməsi kimi böyük bir vəzifə durur. Əminəm ki, bunun öhdəsindən uğurla gələcəyik. Dağıdılmış şəhər və kəndləri bərpa edəcəyik. Mənşəyindən asılı olmayaraq məhv edilmiş mədəni irsin hamısını bərpa etmək üçün əlimizdən gələni əsirgəməyəcəyik. Çünki bu irs ölkəmizin qürur duyduğumuz mədəni müxtəlifliyini təcəssüm etdirir", - deyə məktubda bildirilir.

Görüş zamanı Azərbaycan nümayəndə heyəti Vatikanda icra olunan layihələr zamanı beynəlxalq ekspertlərin cəlb olunduğunu qeyd edərək, Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki tarixi-mədəni irsin bərpasında Vatikan mütəxəssislərini yaxından iştiraka, öz fikir və tövsiyələri ilə bu prosesə töhfə verməyə çağırıb.

Müqəddəs Arxeologiya Komissiyasının inspektoru, professor Fabrizio Biskonti Heydər Əliyev Fondu və Vatikan arasında əməkdaşlıq çərçivəsində görülmüş işlərin qısa məcmusu haqqında danışıb və üçüncü mərhələdə görüləcək bərpa işlərinə dair təqdimatla çıxış edib. F.Biskonti qeyd edib ki, ümumi uzunluğu yeddi kilometrə çatan Komodilla katakombalarının tarixi eramızın 4-cü əsrinə gedib çatsa da, onlar XV əsrdə yenidən aşkarlanıb və qazıntı işləri XX əsrdə aparıldı. Qəza vəziyyətində olan katakombaların tavan hissəsinin konservasiyası işlərində Heydər Əliyev Fondunun dəstəyi ilə müasir texnologiyalardan istifadə edilir.

Mərasimdə Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Bakı İslam Universitetinin rektoru Sabir Həsənli və Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev Azərbaycandakı dini tolerantlıq, multikultural mühit, eləcə də dini icmalar üçün yaradılmış şəraitdən danışıblar.

Nümayəndə heyəti daha sonra Roma şəhərinin VIII rayonu ərazisində yerləşən Komodilla katakombaları ilə tanış olub. Roma şəhərinin VIII rayonunun bələdiyyə sədri Amadeo Çiakkeri bu rayonun ərazisində yerləşən katakombanın tarixi əhəmiyyətini qeyd edib və bildirib ki, insanların gur hərəkət etdiyi ərazidə yerləşən katakombanın Heydər Əliyev Fondunun dəstəyi ilə bərpası layihəsi sakinlərin sevincinə səbəb olub. Qeyd olunub ki, bərpa işləri bu tarixi abidəyə ictimaiyyət və turistlərin marağını artıracaq, eləcə də bu abidənin gələcək nəsillər üçün qorunub saxlanmasını təmin edəcək.

Müqəddəs arxeologiyası üzrə Pontifik Komissiyasının arxeoloqu Barbara Matsei Komodilla katakombasının olduqca həssas bir hissəsində indiyədək restavrasiya işlərinin aparılmadığını diqqətə çatdıraraq qeyd edib ki, bərpa işləri, eyni zamanda, təsvirlərin yaxından tədqiqi və analizi üçün unikal fürsət yaradacaq. Abidələrin strukturu zərif olduğuna görə bu işlərdə müasir texniki avadanlıq və metodlardan istifadə ediləcək, həmçinin rəsmlərin çəkilmə texnikası, istifadə edilən boya və digər materiallar da diqqət mərkəzində olacaq.

Müqəddəs Arxeologiya Komissiyasının inspektoru, professor Fabrizio Biskonti ekskursiya zamanı Komodilla katakombasının tarixi barədə məlumat verib. Qeyd edilib ki, erkən xristianlıq dövrünə aid ilk artefaktların mövcud olduğu katakomba Felisio və Adauktus adlı xristian əzabkeşlərinin dəfn olunduğu məkan kimi də tanınır və orta əsrlərdə möminlərin ziyarətgahına çevrilmişdi. Katakombada ilk xristian əzabkeşi San Stefano, İsa peyğəmbərin həvari Pietroya Cənnətin açarlarını təqdim etməsi və digər mövzularda freskalar dini və tarixi əhəmiyyət daşıyır. Eyni zamanda, qeyd edilib ki, ötən əsrin 50-ci illərində bu ərazidə yaşayış binalarının tikintisi katakombanın statikasına mənfi təsir göstərib və Heydər Əliyev Fondunun göstərdiyi dəstək olmasaydı, katakombanın böyük arxeoloji dəyərə malik bu hissəsi uça bilərdi.

Nümayəndə heyəti, həmçinin Müqəddəs Sebastian katakombasının Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılmış yeni muzey və restavrasiya edilmiş sarkofaqlarla da tanış olub. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Sebastian katakombalarının bərpası işlərinə 2016-cı ildə başlanılıb. 2018-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva katakombaların açılışı mərasimində iştirak edib. Hazırda muzeydə Heydər Əliyev Fondunun dəstəyi ilə restavrasiya olunmuş 150 sarkofaq və ya onların fraqmentlərindən ibarət eksponatlar nümayiş olunur. Yer altında dörd mərtəbədən ibarət katakombada isə Fondun dəstəyi ilə restavrasiya olunmuş, eramızın IV əsrinə aid sarkofaq və barelyeflər yerləşir. İncildən səhnələrin yer aldığı barelyef erkən xristianlıq dövrü üçün mühüm abidələrdən sayılır.

Eyni zamanda, qeyd edilib ki, Roma şəhərində 60-dan çox katakomba mövcud olmasına baxmayaraq, onlardan cəmi bir neçəsi ictimaiyyət üçün açıqdır. Heydər Əliyev Fondunun dəstəyi ilə aparılan işlər dini və mədəni irsin qorunub saxlanmasında mühüm əhəmiyyət daşıyır.

Sonra nümayəndə heyəti IV əsrdə katakombanın üzərində inşa edilmiş Müqəddəs Sebastian Bazilikası ilə də tanış olub.

Həmçinin restavrasiya işləri 2020-ci ildə başa çatan Müqəddəs Pyotr kilsəsinin bazilikasındakı "Roma Papası I Leon və Hun imperatoru Atillanın görüşü" barelyefinə baxış olub.

Beləliklə, Heydər Əliyev Fondu dünya mədəni, tarixi və dini irsinin qorunması, mədəniyyətlər və dinlərarası əlaqələrin inkişafına xidmət edən növbəti layihəsinə imza atdı.

# KOMİTƏ SƏDRİ RUMINİYA SƏFİRİ İLƏ GÖRÜŞÜB

Martın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Rumıniyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dan Yanku ilə görüşüb.

Görüş zamanı Komitə sədri iki ölkə arasında Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk illərdən başlanan əlaqələrin bütün sahələrdə uğurla davam etdiyini, Ermənistanın təcavüzkarlığına qarşı Azərbaycanın haqlı mövqeyinin Rumıniya tərəfindən dəstəkləndiyini qeyd edib.

Ölkəmizdəki dini mühit barədə danışan M.Qurbanlı Azərbaycanda hökm sürən tolerant və multikultural mühitin qorunub-saxlanılması istiqamətində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Dövlətin qarşısına qoyduğu məqsədlərdən birinin bu mühiti qoruyub-saxlamaq və təşviq etmək olduğunu vurğulayan Komitə sədri ölkədə güclü tolerantlıq ənənələrinin tarixən mövcud olduğunu, Azərbaycanın dünyada multikulturalizmin mərkəzlərindən birinə çevrildiyini qeyd edib. Bildirilib ki, Azərbaycanda dövlət qeydiyyatına alınan 963 dini icmanın 37-si qeyri-islam təmayüllüdür və ölkəmizdə dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi dəyərlərini, mədəniyyətini, dilini və tarixi nailiyyətlərini qoruyub-saxlamaq imkanına malikdir.



Azərbaycanın tarixi ədaləti bərpa edərək ötən il 44 gün davam edən Vətən müharibəsində əzəli və əbədi torpaqlarını erməni işğalından azad etdiyini vurğulayan DQİDK sədri Qarabağda və ətraf rayonlarda artıq quruculuq işlərinə başlanıldığını, erməni vandalizminə məruz qalmış maddi-mədəni, dini irs nümunələrimizin bərpası istiqamətində layihələrin həyata keçirildiyini nəzərə çatdırıb.

Fəaliyyət müddətinin başa çatdığını qeyd edən Rumıniyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dan Yanku ötən dövr ərzində ölkəmizin bir çox - TANAP, TAP, Bakı-Tbilisi-Qars dəmir yolu və s. bu kimi mühüm beynəlxalq layihələri reallaşdırmasını, mədəniyyətlər və sivilizasiyalararası dialoqun inkişafına yönəlmiş tədbirlərə ev sahibliyi etməsini xüsusi vurğulayıb. Ötən il isə Azərbaycanın ən böyük uğura imza ataraq torpaqlarını işğaldan azad etməsinin mühüm hadisə olduğunu bildirib. Ölkələrimizin tolerant və multikultural dəyərlərə verdiyi önəm baxımından oxşar olduğunu bildirən səfir bu istiqamətdə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edib.

Daha sonra iki ölkə arasında dini sahədə əlaqələrin daha da genişləndirilməsi imkanları, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# DQİDK YANINDA İCTİMAİ ŞURAYA SEÇKİ KEÇİRİLİB

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli Qanununa, Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq martın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın yeni tərkibinin müəyyən olunması üçün seçki keçirilib.

Seçkinin təşkili məqsədilə ötən il Dövlət Komitəsi nümayəndələrindən 4 üzv, vətəndaş cəmiyyəti institutlarından 5 üzv olmaqla 9 nəfərdən ibarət Seçki komissiyası yaradılıb və Komissiyanın protokoluna əsasən Şuraya üzvlüyün say həddi 7 olaraq təsdiq edilib.

Seçkilərin keçirilməsi ilə bağlı səsvermədə iştirak etmək üçün 19.02.2021-ci il tarixindən 05.03.2021-ci il tarixinədək DQİDK tərəfindən elan verilib və müraciət edən 43 vətəndaş cəmiyyəti institutunun nümayəndəsi qeydiyyata alınıb. Onlardan 37 nəfər səsvermədə iştirak edib.



Seçkinin yekunu olaraq DQİDK yanında İctimai Şuranın 7 nəfərdən ibarət yeni tərkibi seçilib. Həmin şəxslər aşağıdakılardır:

1. Alızadə Sevinc Əsgərxan qızı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi;
2. Mehdiyev Nurəddin Səftər oğlu, "Bizim nəsil" Gənclərin Regional İnkişaf Assosasiyası İctimai Birliyi;
3. Sadıqlı Vasif İbrahim oğlu, "Din və Demokratiya Mərkəzi" İctimai Birliyi;
4. Məmmədova Nüşabə Ələsgər qızı, "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" İctimai Birliyi;
5. Bayramov Çingiz İbrahim oğlu, "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyi (TUMİB);
6. Zeyni Rauf Xurşud oğlu, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu;
7. Çobanzadə Elçin Əlişah oğlu, "Gənclərin Mədəniyyətlərarası Əməkdaşlıq Liqası" İctimai Birliyi.

Qeyd edək ki, İctimai Şuranın yaradılması Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, müvafiq fəaliyyət sahələrində ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin edilməsi məqsədi daşıyır.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN YENİ TƏRKİBDƏ İLK İCLASI BAŞ TUTUB

Martın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Komitə yanında İctimai Şuranın yeni tərkibdə üzvləri ilə görüşüb.

M.Qurbanlı İctimai Şuraya seçilmiş üzvləri təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin ölkəmizdə ictimai iştirakçılığa və ictimai nəzarətə xüsusi diqqət göstərməsini qeyd edərək dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda da vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi ilə bağlı qarşıya yeni vəzifələr qoyulduğunu bildirib. DQİDK sədri Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutunun vətəndaş cəmiyyətləri institutları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərdiyini vurğulayıb. O, İctimai Şuranın əvvəlki tərkibi kimi, yeni tərkibinin də Azərbaycanın dövlət-din modelinin təşviqi, eləcə də ölkəmizin əldə etdiyi multikultural nailiyyətlərin, erməni vandalizminə məruz qalmış tarixi, mədəni və dini abidələr barədə faktların daha geniş şəkildə beynəlxalq ictimaiyyətə təbliği istiqamətində, eyni zamanda dindən sui-istifadə hallarına qarşı maarifləndirmə prosesində sıx əməkdaşlıq şəraitində uğurla fəaliyyət göstərəcəyinə, sözügedən istiqamətdə daim aktiv olacağına, rəy və təkliflərlə çıxış edəcəyinə əminliyini ifadə edib.



Daha sonra İctimai Şuranın yeni tərkibdə ilk iclası keçirilib. İctimai Şuranın təşkilati məsələləri ilə bağlı rəy və təkliflər səsləndirilib. İctimai Şuraya üzvlər arasından səs çoxluğu ilə "Zəfər" şəhid ailələrinə dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə sədr, "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin sədri Çingiz Bayramov sədr müavini, "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" İctimai Birliyinin sədri Nüşabə Məmmədova isə katib seçilib.

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni dövlət qurumları yanında İctimai Şuraların yaradılmasının önəminə toxunaraq DQİDK-nın qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq istiqamətində atdığı addımları yüksək qiymətləndirib.

"Bizim nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyinin sədri Nurəddin Mehdiyev və "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin sədri Çingiz Bayramov Dövlət Komitəsi tərəfindən cəmiyyətin maarifləndirilməsi yönündə aparılan işlərin önəmini qeyd edərək İctimai Şuranın bu tədbirlərdə yaxından iştirak edəcəyini bildiriblər.

Sonda çıxış edən "Zəfər" şəhid ailələrinə dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə göstərilən etimada görə Şura üzvlərinə təşəkkürünü bildirərək İctimai Şuranın öz vəzifələrini uğurla yerinə yetirəcəyini, dini və mənəvi dəyərlərin təbliği və qorunub saxlanılmasına töhfə vermək əzmi ilə fəaliyyət göstərəcəyini vurğulayıb.

# “DİNİ MƏBƏDLƏRİN QORUNMASI – MƏNƏVİ DƏYƏRLƏRİMİZİN TƏRKİB HİSSƏSİ KİMİ” MÖVZUSUNDA VİDEOKONFRANS KEÇİRİLİB

Martın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Dini məbədlərin qorunması – mənəvi dəyərlərimizin tərkib hissəsi kimi” mövzusunda videokonfrans keçirilib. Tədbirdə DQİDK rəhbərliyi, Baş Prokurorluq, Daxili işlər, Mədəniyyət nazirliklərinin nümayəndələri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təmsilçisi, Şuşa, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Ağdam, Tərtər şəhər və rayonlarının İH başçılarının müavinləri, rayon prokurorları, polis idarələrinin rəisləri, dini konfessiyaların, dini icmaların üzvləri iştirak ediblər.







Tədbiri giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov dövlətin yürütdüyü din siyasətinə diqqət çəkərək ölkəmizdə dini məbədlərin qorunmasının, müxtəlif dinlərə məxsus dini abidələrin, ibadətgahların təmir və tikintisinin prioritet məsələ kimi bu siyasətin əsas tərkib hissəsindən biri olduğunu vurğulayıb. Dövlət tərəfindən həm ölkə daxilində, həm də ölkə hüdudlarından kənarda dini konfessiyalara ayrı-seçkilik qoyulmadan bütün dinlərin tarixi-memarlıq abidələri, məscid, kilsə və sinaqoqlar, ziyarətgahlar təmir və bərpa olunur. Bu məsələ bu gün tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən cənab Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir.

S.Heydərov bu gün işğaldan azad olunan ərazilərimizdəki tarixi-dini abidələrimizin bərpası və qorunmasının gündəm məsələlərindən birinə çevrildiyini qeyd edib. Bildirib ki, ermənilər Qarabağ bölgəsində İslam mədəniyyətinə aid olan muzeyləri, məscidləri və abidələri yerlə-yeksan edib, onların bir qismini saxtalaşdırılıb. Erməni vandallığına yalnız İslam abidələri deyil, xristian abidələri də məruz qalıb. Bu faktlara baxmayaraq, bir çox beynəlxalq qurumların, xüsusilə UNESCO-nun Azərbaycanın əvvəllər işğal altında olmuş ərazilərində Ermənistanın törətdiyi müharibə cinayətlərinə qarşı susqunluq nümayiş etdirməsi, ermənilərin törətdiyi vandallığa göz yumması bizi təəssüfləndirir. Həmçinin bəzi müsəlman ölkələrinin bu proseslərə biganə və susqun yanaşması, “Part Saman Cahan” şirkətinin (İran) erməni separatçıları ilə razılaşaraq Şuşanın Yuxarı Gövhər Ağa məscidində təmir-bərpa işləri aparması Azərbaycan xalqının mədəni-dini mirasına qarşı yönəldilmiş hərəkətlərin davamı kimi qiymətləndirilir.

S.Heydərov çıxışında erməni vəhşiliyinin və vandallığının, törətdikləri çirkin əməllərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü kompleks tədbirlərin görülməsinin və sənədli filmlərin hazırlanmasının vacibliyinə də toxunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov “İşğaldan azad olunmuş ərazilərimizdəki tarixi-dini abidələr” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, ermənilər bizim tarixi-dini abidələrimizə qarşı faktiki olaraq soyqırım həyata keçiriblər. Ermənistan işğal altında qalan tarixi-dini abidələrimizlə bağlı fəaliyyəti 3 istiqamətdə həyata keçirib. Birinci istiqamət Türk-İslam abidələrinin hamısının dağıdılmasına yönəldilib. İkinci fəaliyyət istiqaməti Azərbaycanın tarixi irsi olan Alban məbədlərinin qriqoryan kilsəsinə çevrilməsidir. Laçın rayonu ərazisindəki “Ağoğlan”, Kəlbəcərdəki “Gəncəsar” məbədi qriqoryan kilsəsinə çevirilmişdi. Onları qriqoryan kilsəsinə çevirməkdə məqsəd Azərbaycan tarixi irsini öz mədəniyyətlərinin bir hissəsi kimi göstərməkdir. Qriqoryan kilsəsinə çevirə bilmədiklərinin hamısını dağıdıblar. Üçüncü istiqamət isə 2 məscidimizi dağıtmadan saxlayıb, tarixi-dini abidələrimizə hörmətlə yanaşdıqlarını əyani göstərmək üçün istifadə ediblər. Bu məscidlərdən biri İrəvan şəhərindəki “Göy məscid”, digəri isə Şuşadakı “Yuxarı Gövhər ağa” məscididir. Lakin bu iki məscidi İran-Fars mədəniyyətinin nümunəsi kimi təqdim ediblər. G.İsmayılov qeyd edib ki, ermənilərin bu iki məscidi təmir etməkdə məqsədi oradakı Azərbaycan izlərini itirməkdir.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli işğaldan azad edilən ərazilərdə aparılan monitorinqlərin nəticələrindən danışaraq oradakı abidələrimizin durumu, mədəniyyət müəssisələrinin hazırkı vəziyyəti barədə məlumat verib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 706 dövlət qeydiyyatına alınmış tarixi-mədəniyyət abidəsinin, 2600-dən çox tarixi, arxeoloji və memarlıq abidəsinin mövcud olduğunu deyən A.Cəfərli qeyd edib ki, onların tam əksəriyyətinin tamamilə dağıdılması Ermənistanın vandallıq siyasətindən xəbər verir. Onlar bizim mədəni irsimizi ərazidən tamamilə silmək, adibədələrin bizə məxsus olması ilə bağlı bütün faktları aradan götürmək istəyiblər. Bildirilib ki, ermənilərin vandallıq siyasətinin əsas hədəfi dini abidələr olub. Çünki dini abidələr hər bir xalqın minillərlə formalaşmış məfkurəsini əks etdirir və bu abidələrin qalması düşmənin mövqeyinə zidd olardı. Ermənilərin yalnız İslam abidələrinə qarşı deyil, ərazidə yerləşən xristian abidələrinə qarşı da törətdiyi vəhşiliklərdən bəhs edən A.Cəfərli Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən aparılmış tədqiqatın nəticələrindən ibarət təqdimatı da tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib ki, Prezident İlham Əliyevin nadir gedişləri, Azərbaycan Ordusunun gücü və cəmiyyətimizdəki milli-dini həmrəylik müharibənin taleyini həll etdi. O, eyni zamanda, Vətən müharibəsi dövründə ölkəmizdəki dini konfessiyaların Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında göstərdikləri fəallığa diqqət çəkib. Qeyd edib ki, mənfur düşmən tərəfindən Qafqaz Albaniyasına məxsus xristian məbədləri və rus pravoslav kilsələri qriqoryanlaşdırılıb, məscidlər tövləyə çevrilərək İslam dinində haram sayılan heyvanların saxlanılması kimi misli görünməmiş həqarət əməllərinə məruz qalıb. Ermənilər Şuşadakı İoann Predteça pravoslav kilsəsini, digər bölgələrdəki Alban-udi məbədlərini qəsb edərək qriqoryanlaşdırıb, Xocavənd pravoslav kilsəsini tamamilə dağıdıb.

Azərbaycan Alban-udi Xristian dini icmasının sədri Robert Mobili təqdimatla çıxış edərək qeyd edib ki, Qafqazda xristianlığın rəsmi din kimi strukturlaşmasının tarixi Alban kilsəsindən başlayır. Qədim qaynaqlar təkcə Azərbaycanın deyil, bütün Qafqazın dini-mədəni həyatında silinməz izlər qoymuş Alban kilsəsi xristian dünyasında ən qədim kilsələrdən biri olduğunu sübut edir. Alban kilsəsinin qədimliyini təkcə tarixi faktlar yox, həm də mövcudluğunu dövrümüzə qədər qoruyub saxlamış qədim alban məbədləri təsdiqləyir. Qeyd edib ki, müxtəlif təzyiq və təsirlərdən sonra 1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edilib, onun maddi və mənəvi irsinin bir qisminə erməni qriqoryan kilsəsi sahib çıxmağa çalışıb. Nəticədə Azərbaycanda, xüsusilə Qarabağda tarixi alban məbədlərinin böyük bir qismi qriqoryanlaşdırılıb, tarixi abidələrimizlə yanaşı, arxiv materialları və sənədlər saxtalaşdırılıb. Alban irsinin, o cümlədən, yaşı yüz illərlə, hətta min illərlə ölçülən Alban məbədlərinin qriqoryanlaşdırılması son yüz ildə Ermənistanın dövlət siyasətinə çevrilib. Bunun nəticəsidir ki, indiki Ermənistan ərazisində və Azərbaycanın işğaldan azad edilən torpaqlarında heç bir alban məbədi saxlanılmayıb. Ermənistan ya Alban məbədlərinin arxitekturasını dəyişdirərək qriqoryanlaşdırıb, ya da arxitekturasını dəyişdirə bilmədiyi məbədləri dağıdıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Bakı şəhəri “Azərbaycan Bibliya Cəmiyyəti” xristian dini icmasının sədri Rasim Xəlilov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndəsi Araz Qurbanov çıxışlarında bütün dinlərin insanları sülhə və əmin-amanlığa çağırdığını, Ermənistanın isə əksinə olaraq xristianlığı siyasiləşdirib müharibəyə dini motiv verməyə çalışdığını qeyd ediblər. Həmçinin çıxışlarda o da vurğulanıb ki, bu Vətən müharibəsində bütün dinlərə mənsub, o cümlədən rus, yəhudi və s. millətlərdən olan Azərbaycan vətəndaşları çiyin-çiyinə vuruşub.

Baş Prokurorluğun nümayəndəsi Qədir Məmmədov dini abidələrin, məbədlərin dağıdılmasının, saxtalaşdırılmasının beynəlxalq humanitar hüquq normalarının pozuntusu hesab edildiyini və müharibə cinayətləri kateqoriyasına aid olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bu cinayətləri törətmiş şəxslər üçün ömürlük həbs cəzası nəzərdə tutulur. Müharibə başladığı gündən etibarən Baş Prokurorluq tərəfindən istintaq qrupu yaradılıb və bütün günahkarlar cəzalandırılacaq.

# "ZƏFƏRƏ APARAN YOL – MİLLİ VƏ DİNİ HƏMRƏYLİK" MÖVZUSUNDA VİDEOKONFRANS OLUB

Martın 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Zəfərə aparan yol – milli və dini həmrəylik" mövzusunda videokonfrans keçirilib. Tədbirdə DQİDK və tabeliyindəki qurumların rəhbərliyi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Baş Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili işlər, Müdafiə, Gənclər və idman, Təhsil nazirlikləri və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin direktoru, Bakı şəhəri üzrə RİH başçılarının müavinləri, rayon prokurorları, polis idarələrinin rəisləri, DTX rəisləri, Bakı şəhəri üzrə İH İctimai-siyasi və humanitar məsələlər şöbələrinin müdir müavinləri-dini qurumlarla işin təşkilatçıları, dini konfessiyaların, dini icmaların nümayəndələri iştirak ediblər.




Tədbiri giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov bildirib ki, 44 gün davam edən Vətən müharibəsinin hər dəqiqəsi xalqımız üçün taleyüklü əhəmiyyət daşıyırdı. Uzun illər düşmən tapdağı altında qalan əzəli və əbədi torpaqlarımız işğaldan azad edildi. Xalqımız bu şanlı Qələbəni böyük ruh yüksəkliyi və sevinclə qeyd etməkdədir. Şübhə yoxdur ki, bu Zəfərin qazanılmasında üç əsas amil başlıca rol oynadı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik və uzaqgörən hərbi-siyasi gedişləri, yüksək peşəkarlığa malik, şücaətli Azərbaycan Ordusu, ən nəhayət, xalqımızın nümayiş etdirdiyi milli və dini həmrəylik müharibənin taleyini həll etdi.

Bu prosesdə ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların fəaliyyətinə xüsusi diqqət çəkən Səyavuş Heydərov fərqliliklərin zənginlik sayıldığı Azərbaycanın bu sınaqdan da üzüağ və alnıaçıq çıxdığını vurğulayıb. Qeyd edib ki, Vətən müharibəsində müxtəlif xalqların və dinlərin mənsubu olan azərbaycanlılar çiyin-çiyinə, qətiyyətlə və vətənpərvərliklə döyüşərək qanları, canları bahasına işğala son qoydular. İstər döyüş meydanında, istər ideoloji mübarizədə, istərsə də haqq səsimizin beynəlxalq səviyyədə eşidilməsində dini konfessiyalar müstəsna xidmətlər göstərdilər. Başda Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə olmaqla, bütün konfessiya rəhbərləri dəfələrlə milli birlik və dini həmrəylik göstərərək düşmənin ölkəmizə qarşı yönəlmiş təxribatlarına kəskin şəkildə etiraz etdilər. Bu işdə qeyri-islam dini icmaları da böyük səy göstərdilər. Onlar tərəfindən cəbhədə Vətən torpaqlarını işğaldan azad edən qəhrəman əsgərlərə humanitar yardımlar göndərildi. İşğal faktına etiraz məqsədilə qeyri-islam dini icmaları tərəfindən müxtəlif səpkili, xarici dillərdə sənədli filmlər, videoçarxlar, məlumat xarakterli materiallar hazırlanaraq yerli və dünya ictimaiyyətinə, o cümlədən beynəlxalq siyasi dairələrə, təşkilatlara dini mərkəzlərə təqdim edildi.

Komitə rəsmisi ermənilərin təcavüzkar siyasətini və cinayətkar əməllərini gizlətmək üçün bu müharibəni müsəlman-xristian münaqişəsi kimi təqdim etməyə, xristian dinini siyasiləşdirməyə cəhd göstərdiyini, lakin dövlətimizin vaxtında gördüyü tədbirlər, atdığı lazımi addımlar nəticəsində düşmənin siyasəti iflasa uğradığını da vurğulayıb.

Baş Prokurorluğun nümayəndəsi Qədir Məmmədov bildirib ki, Vətən müharibəsində xalq güclü birlik və həmrəylik nümayiş etdirərək Prezident İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşdi. Vətəninə, dövlətinə, milli-dini adət-ənənələrinə sadiq gənclər, əsgərlərimiz, zabitlərimiz Azərbaycan yolunda qəhrəmanlıq göstərdilər, şəhid olmağı şərəf bildilər.

Q.Məmmədov çıxışında, həmçinin insanpərvərlik prinsiplərinə zidd olan dini ekstremizmə qarşı aparılan profilaktik işlərin əhəmiyyətinə toxunub. Bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəlmiş pozuculuq fəaliyyətlərinin qarşısının qətiyyətlə alındığını bildirib. Ölkəmizdə din azadlığının, insan hüquqlarının müdafiəsinin hər zaman ön planda olduğunu qeyd edib.



Daxili İşlər Nazirliyinin nümayəndəsi Oqtay Tağıyev zəfərimizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən tolerantlıq siyasətinin xüsusi rola malik olduğunu vurğulayıb. Azərbaycandakı bu nümunəvi mühitin qorunmasının vacibliyinə toxunan natiq sosial media vasitəsilə təbliğat aparan, öz zərərli ideyalarını yayan qruplara qarşı mübarizənin vacib olduğunu bildirib. Zərərli təbliğatın qarşısının alınmasında, ölkəmizdəki tolerantlıq mühitinin qorunub-saxlanılmasında, gənclərimizin milli ruhda tərbiyə edilməsində cəmiyyətin bütün təbəqələrini fəal olmağa çağırıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov qeyd edib ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanda yaşayan bütün etnik və dini konfessiyaların birliyi, torpaqlarımızın işğaldan azad olunması uğrunda birgə mübarizəsi heç də təsadüfi deyildir. Azərbaycan öz multikultural və tolerant yaşam tərzini bir daha dünyaya nümayiş etdirdi.

Müdafiə Nazirliyinin nümayəndəsi Həbib Məmmədov milli birliyimizin xalqımızın zəngin tarixindən irəli gəldiyini vurğulayaraq Ulu Öndərimiz Heydər Əliyevdən bizə miras qalan azərbaycançılıq ideologiyasının da möhtəşəm qələbə əldə etməyimizdə xüsusi rola malik olduğunu qeyd edib. H.Məmmədov Azərbaycan Ordusunda şəxsi heyətin vətənpərvərlik hissinin, mənəvi-psixoloji hazırlığının və döyüş ruhunun yüksəlməsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Müdafiə Nazirliyinin tabeliyində olan idarələrdə, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil edilən görüşlərin əhəmiyyətinə də diqqət çəkib.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib ki, Prezident İlham Əliyevin unikal gedişləri, Azərbaycan Ordusunun gücü və cəmiyyətimizdəki milli-dini həmrəylik müharibənin taleyini həll etdi. O, eyni zamanda Vətən müharibəsi dövründə ölkəmizdəki dini konfessiyaların Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün göstərdikləri fəallığa diqqət çəkib.

Daha sonra çıxış edən Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov, Bakı şəhər İcra Hakimiyyətinin nümayəndəsi Elmin İmanov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Gülnarə Məmmədova, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov dövlətin uzun illər dini icmalarla multikulturalizm və tolerantlıq prinsipləri əsasında həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün ölkəmizdə dini həmrəyliyin ən yüksək səviyyədə təzahür etdiyini, Azərbaycanımızın daha da inkişafı naminə bundan sonra da birlikdə çalışmalı, səylərimizi birləşdirməli olduğumuzu qeyd ediblər.

Videokonfransın sonunda DQİDK-nın sədr müavini Səyavuş Heydərovun müəllifi olduğu "Din və ideoloji təhlükəsizlik" adlı kitab təqdim edilib. Nəşr barədə məlumat verən Azərbaycan İlahiyyat İnstitunun rektoru Aqil Şirinov kitabda beynəlxalq aləmdə dini təhlükəsizlik sahəsində baş verən proseslər və onların mahiyyəti, mövcud təhdidlər və onlarla mübarizə yolları, həmçinin Azərbaycan Respublikasında din və ideoloji təhlükəsizlik sahəsində həyata keçirilən fəaliyyətin işıqlandırılıldığını bildirib. Rektor 6 fəsildən ibarət nəşrin bu sahədə çalışan mütəxəssislər və tələbələr üçün səmərəli vəsait olduğunu vurğulayıb.

# QUBADA SOYQIRIMI QURBANLARI YAD EDİLİB




Martın 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Quba bölgəsi üzrə şöbəsinin və Qafqaz Müsəlmanları İdarəsinin Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə şöbənin əməkdaşları, bölgədə fəaliyyət göstərən QMİ-nin səlahiyyətli nümayəndələri və din xadimləri Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

Ziyarət zamanı 1918-ci ildə Qubada kütləvi şəkildə amansızlıqla qətlə yetirilərək həmin ərazidə quyulara doldurulmuş həmyerlilərimizin 2007-ci ildə aşkarlandıqdan sonra Azərbaycan dövləti tərəfindən dinimizə və mənəviyyatımıza uyğun şəkildə dəfn olunduqları yer və abidənin önünə gül dəstələri qoyulub.

Din xadimləri Quranı-Kərimdən surələr oxuyub, soyqırım qurbanlarının ruhlarına dualar ediblər.

DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev abidə önündə çıxış edərək bildirib ki, 1918-ci ilin mart-may aylarında Quba qəzasında ermənilər tərəfindən həyata keçirilən qırğınlar Azərbaycan xalqına qarşı məqsədli şəkildə təşkil olunmuş soyqırım aktıdır. Postsovet dönəmində məqsədli şəkildə bu soyqırım aktı ört-basdır edilsə də, müstəqillik əldə olunduqdan sonra və Ulu Öndər Heydər Əliyevin, daha sonra isə Azərbaycan Respublikasının Prezidenti cənab ilham Əliyevin qətiyyəti və iradəsi hesabına beynəlxalq aləmdə tanıdılmağa başlanılıb.

# YAQUT ƏLİYEVA: ÇOXMİLLƏTLİ, ÇOXKONFESSİYALI ÖLKƏMİZDƏ BU GÜN DİNİ ETİQAD AZADLIĞI TAM ŞƏKİLDƏ TƏMİN EDİLİR

"Dünyada yüksək milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus harmoniya yaradır. Qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilib".

Bu sözləri "İki sahil"ə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva deyib.

Y.Əliyeva bildirib ki, mədəniyyətlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanda tarix boyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə günümüzdə də yüksək şəkildə davam edir: "Çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə bu gün dini etiqad azadlığı tam şəkildə təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər". Y.Əliyeva qeyd edib ki, xalqımızın gen yaddaşından süzülüb gələn dözümlülük, multikultural ənənə bizim üçün normal yaşayış, həyat tərzidir desək, əsla yanılmış olmarıq: "Çünki heç zaman Azərbaycanda dini, milli zəmində qarşıdurma olmayıb. Bu sahədə cəmiyyətdə formalaşmış dözümlülük, tolerantlıq və multikultural ənənələr ilə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir. Ölkəmizdə tolerantlıq və multikulturalizm mühitinin daha da güclənməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və hazırda bu siyasəti dövlət başçısı İlham Əliyev uğurla davam etdirir. Bu gün ölkəmizin hər kəs üçün multikultural məkana çevrildiyi təkzibedilməz faktdır. Azərbaycanda yaşayan müxtəlif xalqlar, mədəniyyət və din ardıcılları arasında qarşılıqlı hörmətin, birgəyaşayış ənənəsinin



mövcudluğu əksər dünya ölkələri, beynəlxalq təşkilatlar, diplomatlar, din xadimləri tərəfindən də qəbul edilir və müxtəlif tədbirlərdə bir çox dövlət üçün örnək göstərilir".

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI AZƏRBAYCANI DOĞMA VƏTƏNİ HESAB EDƏN BÜTÜN XALQLARI BİRLƏŞDİRƏN DƏYƏRDİR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova "Yeni Azərbaycan" qəzetinə açıqlama verib.

O bildirib ki, azərbaycançılıq məfkurəsi Azərbaycanı doğma vətəni hesab edən bütün xalqları, etnik qrupları birləşdirən dəyərdir. E.Kərimova bugünkü və gələcək inkişafımızın əsas meyarlarından sayılan azərbaycançılıq ideologiyasını Ulu Öndərimizin xalqımıza yadigar qoyduğu sərvətlərdən biri adlandırıb. Onun sözlərinə görə, Azərbaycan tarixən müxtəlif millətlərin dinc, yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Məhz bu birgəyaşayış ənənəsi Azərbaycan vətəndaşı sayılan hər kəsi azərbaycançılıq ideyası ətrafında birləşdirib.

Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini vahid konsepsiya halında birləşdirən azərbaycançılıq ideyasının tərkibində dini həmrəyliyimizin xüsusi yeri vardır: "Bu gün dünyada dini zəmində qarşıdurmaların artdığı bir dövrdə tolerantlıq, birgəyaşayış, multikulturalizm kimi ülvi dəyərlər Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. İnkaredilməz həqiqətdir ki, dünya ölkələrində demokratik dəyərlərdən biri kimi təbliğ olunan dini dözümlülük xalqımızın əsrlərboyu formalaşan və bir çoxuna örnək olan xarakterik xüsusiyyətidir. Müstəqil Azərbaycanda multikulturalizm və tolerantlıq siyasətinin banisi Ulu Öndər Heydər Əliyev daim mötəbər tribunalarda Azərbaycan Respublikasının çoxmillətli dövlət olduğunu, ölkəmizdə müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub vətəndaşların da sülh və əmin-amanlıq şəraitində yaşadığını, Azərbaycanın öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, azadlıq imkanları verdiyini fəxrlə vurğulayıb. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə əsasını qoyduğu siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentimizin xüsusi diqqət və qayğısı nəticəsində ölkəmiz konfessiyalararası münasibətlərin, tolerantlıq mühitinin, multikultural təfəkkürün dünya üçün nümunəvi modelinə çevrilib. Həyata keçirilən uğurlu strategiya sayəsində milli-mənəvi həmrəylik, etnik-dini tolerantlıq mühiti qorunub saxlanılır və mütərəqqi tarixi ənənələr daha da inkişaf etdirilir".

E.Kərimova vurğulayıb ki, ölkəmizdə vətəndaşların dini etiqad azadlığının təmin edilməsi, bütün dini konfessiyalara ibadət və ayinlərinin rahat icrası üçün hər cür şərait yaradılıb. Mütəmadi olaraq hər il dövlət başçısı tərəfindən dini konfessiyalara ayrı-seçkilik qoyulmadan maliyyə yardımı ayrılır. Bundan başqa, ölkədəki bütün dinlərin tarixi-memarlıq abidələri, məscid, kilsə və sinaqoqlar, ziyarətgahlar təmir və ya bərpa olunur. "Müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun dərinləşməsinə, tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondunun, xüsusilə Fondun prezidenti Mehriban xanım Əliyevanın bu sahədə əvəzolunmaz xidmətləri vardır. Fond fəaliyyətinin mühüm istiqamətlərindən biri kimi həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda milli-mənəvi dəyərlərin və mədəni irsin qorunub saxlanması, ölkə və dünya əhəmiyyətli tarixi dini abidələrin bərpası və yenidən qurulması ilə bağlı kifayət qədər böyük işlər görmüşdür. Bir məqamı da vurğulamaq lazımdır ki, bu gün azərbaycançılıq ideologiyası multikultural dəyərlərin qorunub saxlanıldığı Azərbaycan cəmiyyətində öz orijinallığı ilə seçilir. Azərbaycançılıq bəşəri dəyərlərə böyük əhəmiyyət verən, mənəviyyatı və insanpərvər prinsipləri bütün maraqların fövqündə saxlayan xalqımızın davranış tərzində öz aydın ifadəsini tapıb. Azərbaycançılıq ideologiyasının əhəmiyyətinin ölkəmizdə yaşayan müxtəlif xalqların, dinlərin nümayəndələrinin Qarabağ müharibəsində, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması prosesində yaxından iştirak etməsi zamanı bir daha şahidi olduq. Həm Birinci Qarabağ müharibəsində, həm də 44 günlük Vətən müharibəsində ölkəmizdə yaşayan digər xalqların nümayəndələri, istər müsəlman, istərsə də qeyri-müsəlman vətəndaşlarımız, ölkəmizdəki bütün dini konfessiyalar vahid mövqe nümayiş etdirərək həmrəylik nümunəsi göstərdi. Təsadüfi deyil ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canını fəda edən vətəndaşlarımız arasında bütün xalqların və dinlərin nümayəndələri var" - deyən E.Kərimova onu da əlavə edib ki, azərbaycançılıq ideologiyasının təcəssümü kimi Vətənin bütövlüyü uğrunda ortaya qoyulan bu milli həmrəylik, birlik və bərabərlik Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında sıx birləşərək torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda apardığımız haqq savaşının qələbə ilə başa çatmasında müstəsna rol oynayıb.

# ALMAN MƏTBUATINDA "AZƏRBAYCANDA ALMAN LÜTERANLARIN YERİ VƏ ROLU" BAŞLIQLI MƏQALƏ DƏRC EDİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Aqşin Axundovun alman mətbuatında "Azərbaycanda alman lüteranların yeri və rolu" başlıqlı məqaləsi dərc edilib. Məqalədə XIX əsrin əvvəllərindən etibarən alman ailələrinin ölkəmizə gəlişinə nəzər yetirilərək, onların buradakı məşğuliyyəti, Azərbaycan iqtisadiyyatına, mədəniyyətinə töhfələri barədə məlumat verilir, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan hökuməti tərəfindən lüteranlığın dirçəlişinə şərait yaradılması, lüteran dini icmasının bərpası və inkişafı istiqamətində atılan addımlara toxunulur. Həmçinin, Azərbaycanda alman məskənlərinin salınmasının 200 illiyi münasibətilə müxtəlif tədbirlərin həyata keçirilməsidən, ölkə başçısının bu barədə müvafiq sərəncamından bəhs edilir.




Məqalədə Almaniya auditoriyasının daha yaxından tanış olması məqsədilə Azərbaycan Respublikası ilə bağlı həqiqətlər də nəzərə çatdırılır. Xüsusən 30 ilə yaxın müddət ərzində ölkəmizin Ermənistanın təcavüzkarlığından əziyyət çəkməsi, XX əsrin insanlığa qarşı ən dəhşətli cinayətlərindən hesab edilən Xocalı soyqırımı, işğal edilmiş ərazilərdə Azərbaycan xalqının maddi-mənəvi irsinin ermənilər tərəfindən məhv edilməsi və ya erməniləşdirilməsi barədə məlumat verilir. Keçən il sentyabr ayının 27-dən noyabr ayının 10-dək Ermənistan tərəfinin başladığı hərbi hücuma cavab olaraq Azərbaycanın həyata keçirdiyi əks hücumla işğal altında olan Dağlıq Qarabağ və ətraf rayonların düşmən tapdağından azad edilməsinə, işğaldan azad olunan torpaqlarımızda dağıdılan tarixi-dini abidələrimizə diqqət çəkilir.

# DÜNYADA BAŞ VERƏN HADİSƏLƏRİN TƏHLİLİ RADİKALİZM, EKSTREMİZM VƏ TERRORİZMİN QLOBAL TƏHLÜKƏSİZLİYİ TƏHDİD EDƏN AMİLLƏRDƏN BİRİNƏ ÇEVRİLDİYİNİ GÖSTƏRİR

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərovun AZƏRTAC-a müsahibəsi.***



**- Səyavuş müəllim, bu yaxınlarda Özbəkistanda keçirilən "Radikalizm, ekstremizm və terrorizmlə mübarizədə gənclərin rolu" mövzusunda beynəlxalq videokonfransda iştirak etmisiniz. Pandemiya şəraitinə baxmayaraq, dünya gündəmində yenə də radikalizm və ekstremizm mövzusu ön plandadır. Bu problemin səbəblərini nədə görürsünüz?**

- Doğru qeyd edirsiniz ki, radikalizm və ekstremizm mövzusu, terrorizmə qarşı mübarizə məsələsi daim dünya ictimaiyyəti üçün aktual mövzudur. Bunun başlıca səbəbi adıçəkilən problemlərin hələ də tam mənası ilə anlaşılmaması və dünyada effektiv mübarizə metodlarının təşəkkül tapmamasıdır. Konfransdakı çıxışımda da qeyd etdim ki, müasir dünyada baş verən hadisələr və münaqişələrin nəticələrinin təhlili radikalizm, ekstremizm və terrorizmin qlobal təhlükəsizliyi təhdid edən əsas faktorlardan birinə çevrildiyini göstərir. Təəssüflər olsun ki, minlərlə günahsız insanın həyatına son qoyan, dövlətlərin sərhədlərinin pozulması ilə nəticələnən belə hadisə və münaqişələrin sayı ildən-ilə artmaqdadır. Bildirməliyik ki, sosial münasibətlərdə nifrət və düşmənçiliyin yayılmasında, zorakı radikalizm, ekstremizm, terrorizm, o cümlədən silahlı münaqişələrin yaranmasında din faktoru önə çıxarılır. Araşdırmalara baxsaq, görürük ki, baş vermiş terror hadisələrinin əksəriyyəti din uğrunda "müqəddəs müharibə" apardıqlarını bildirən silahlı qruplaşmalar tərəfindən törədilib. Terrorizmin səbəblərinin arasında dindən siyasi məqsədlərlə istifadə edilməsi xüsusi çəkiyə malikdir. Görünən odur ki, bu gün din öz mahiyyətindən uzaqlaşdırılaraq, sürətlə siyasiləşdirilir. Şübhəsiz, bunda bəzi qüvvələrin öz maraqlarını təmin etmək üçün dindən vasitə kimi istifadə etməsi böyük rol oynayır.

**- Sizcə, bu proseslər sadəcə dinlə və yaxud da İslam dünyası ilə əlaqəlidir, yoxsa başqa səbəblər də var?**

- Bilirsiniz, burada çox səbəb var. Təəssüflər olsun ki, İslam dünyası özü bu proseslərin acınacaqlı nəticələrindən daha çox əziyyət çəkir. Yaxın Şərqdə baş verən hadisələri nümunə kimi göstərə bilərik. Terrorizm, ekstremizm və silahlı münaqişələrə görə bəzi müsəlman ölkələrində dövlətin idarəetmə mexanizmləri iflasa uğrayıb, de-fakto ərazi bütövlükləri pozulub. Hər gün İslam coğrafiyasında terror hadisələri, silahlı münaqişələr nəticəsində onlarla insanın həyatına son qoyulur. İnsanlar öz yurd-yuvalarından didərgin düşürlər. Həmin insanlar özləri istəmədən miqranta çevrilir və Avropanın qapılarını döyməyə məcbur olur. Öz yaşam tərzi, təfəkkürü, mədəniyyəti, dünyagörüşü olan bu insanlar sanki bir dünyadan başqa bir dünyaya düşərək, yeni cəmiyyətə inteqrasiya etmək məcburiyyətində qalırlar. Bu proses isə olduqca çətindir, eləcə də həm zaman, həm də xüsusi qayğı tələb edir. Buna paralel olaraq, bəzi Qərb dövlətlərində radikal millətçi elementlər bu prosesdə din amilini qabardaraq, ondan siyasi məqsədlər üçün istifadə edirlər. Miqrant statusunda gələn müsəlmanlara "çağırılmamış qonaq" qismində baxır və onları cəmiyyət üçün təhlükə mənbəyi kimi göstərməyə çalışırlar. Nəticədə cəmiyyətdə ksenofobiya, xüsusilə də islamofobiya meyilləri güclənir. Məsələnin səbəblərinə daha dərindən nəzər saldıqda bütün bunların siyasi məqsədlər üçün edildiyi aydın olur. Dinin siyasiləşdirilməsi həddən artıq təhlükəli, qlobal təhlükəsizliyə ciddi təhdid yaradan problemdir.

**- Bəs bu problemin həllini nədə görürsünüz?**

- İlk növbədə, dinin siyasi məqsədlər naminə istifadə edilməsinin qarşısını almalıyıq. Belə ki, hansısa dövlətin və ya fərdin öz maraqlarını din adından istifadə edərək həyata keçirməsinin neqativ nəticələri bütünlüklə qlobal təhlükəsizliklə yanaşı, dinin özünə də zərbə vurur. Buna görə də, həqiqi mahiyyətinə uyğun olaraq, dinin mənəvi aləmimizin zənginləşməsinə xidmət etdiyini qəbul etməli və praktik həyatımızda yaşatmalıyıq. Din həyatımızın ayrılmaz hissəsidir. Çünki onu əvəz edəcək başqa bir qüvvə, meyar yoxdur. Elmin, texnologiyanın inkişafı nə qədər sürətlə getsə də, din kimi insanın mənəvi dəyərlərini qorumur və təbliğ etmir. Sağlam cəmiyyət üçün din və elmin vəhdəti olduqca vacibdir. Belə ki, dini inancın elmi təfəkkürlə əlaqəsi çox mühüm məsələlərdən biridir. Din və elm predmetlərinə görə fərqli sistemlər olsa da, hər ikisi sivilizasiya quruculuğu və ictimai münasibətlər üçün ən güclü vasitədir. Sivilizasiya sadəcə iqtisadi, siyasi və hüquqi sistemləri ehtiva etmir. O həm də inam və dəyərlərlə möhkəmlənir, inkişaf edir. İnam və dəyərlərin isə mənbəyi dindir. Eyni zamanda, dinlər və mədəniyyətlərarası dialoq ənənələrini qorumalı, onu inkişaf etdirməliyik.

Mən burada xüsusi bir məsələyə də diqqət yetirmək istəyirəm. Radikalizm, ekstremizm və terrorizmin qarşısını almağın yolu din haqqında anlayışların qloballaşan müasir dövrün tələblərinə və çağırışlarına uyğun yenilənməsindən keçir. Belə ki, dinin sabit, dəyişilməz prinsiplərini əsrlər boyu adət-ənənələrdən gələrək dinə hopmuş, dini hökmlər kimi insanlara sırınmağa çalışılan mənfi xüsusiyyətlərdən ayırd etmək vacibdir. Düşünürəm ki, bu məsələyə xüsusi önəm verilməlidir. Bütün problemlər bizi bir məsələyə qaytarır: din nədir, onun funksiyası və məqsədi nədir. Əgər insanlıq inkişaf edirsə və dəyişiklik inkişaf qanunauyğunluğunun tələbidirsə, o zaman bizim baxışlarımız necə olmalıdır? İnsanın həyatı onun mənəvi intellektual inkişafı və xoşbəxtliyi tarixin hansısa bir dövründə donub-qalmış baxışlara necə qurban verilə bilər? Bu kimi suallara səmimi cavab axtarmaq İslam dünyasındakı ətalətə son qoyar, insanların öz inanclarına şüurlu yanaşmasına gətirib çıxara, radikal və fanatik baxışları xeyli azalda bilər. Nəticədə qloballaşmanın sivilizasiyaların toqquşmasına deyil, ümumdünya sülhünün bərqərar olmasına yönəldilməsinə daha çox töhfə vermiş olarıq.

Bu sahədə sosial şəbəkələrlə də bağlı ciddi problemlər mövcuddur. Bildiyiniz kimi, bu gün gənclər internet resurslarından geniş istifadə edir. Bunun fərqində olan radikal qruplar da zərərli dini təbliğat üçün əlverişli məkan olan sosial şəbəkələrdən maksimum bəhrələnirlər. Belə qrupların fəaliyyətinin məhdudlaşdırılması istiqamətində müvafiq mexanizmlərin və standartların müəyyənləşdirilməsinə ciddi ehtiyac vardır. Dini dəyərlərin və müqəddəs təsisatların təhqir edilməsinin söz və ifadə azadlığı adı altında müdafiə edilməsindən çəkinilməlidir. Bu sahədə beynəlxalq hüquqi normaların düzgün müəyyənləşdirilməsi zərurəti yaranır. Belə ki, bu problemlər sadəcə bir dövlətin həll edə biləcəyi məsələlər deyil, məsələyə beynəlxalq müstəvidə yanaşılmalı və problemin aradan qaldırılması istiqamətində əməli addımlar atılmalıdır. Beynəlxalq təşkilatlar, xüsusilə BMT bu məsələyə adekvat reaksiya verməlidir. Çünki biganəlik və sözdə qalan fəaliyyətlə bu təhlükənin qarşısını almaq qeyri-mümkündür.

**- Səyavuş müəllim, təəssüf ki, Vətən müharibəsində ölkəmiz də dinin siyasiləşdirilməsi cəhdləri ilə üz-üzə qaldı. Bununla bağlı nə deyə bilərsiniz?**

- Tamamilə doğru qeyd edirsiniz ki, xalqımız 30 ilə yaxın idi ki, erməni vandallarının terror fəaliyyətinin, cinayətlərinin qurbanına çevrilmiş, torpaqlarımız isə işğala məruz qalmışdı. Lakin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun şanlı Qələbəsi bu işğala son qoydu. Ermənistan təcavüzkar siyasətini və cinayətkar əməllərini gizlətmək üçün bu müharibəni müsəlman-xristian münaqişəsi kimi təqdim etməyə cəhd göstərmişdir. Lakin dövlətimizin vaxtında gördüyü tədbirlər, atdığı lazımi addımlar nəticəsində düşmənin siyasəti iflasa uğramışdır. Onu da qeyd etmək lazımdır ki, illərdir Qarabağa münasibətdə dünyanın ədalətsiz mövqe nümayiş etdirməsində dini ayrı-seçkilik faktorunun böyük rolu olmuşdur. Ümumiyyətlə, tarixə nəzər salsaq, hegemonluğunu və s. məqsədlərini təmin etmək istəyən bəzi dövlətlər tərəfindən öz geosiyasi maraqları naminə din amilindən geniş istifadə olunduğunun şahidi olarıq. Azərbaycan da müstəqilliyinin bərpasının ilk illərindən etibarən dini müstəvidə təhdidlərlə üzləşmişdir və bu təhdidlər hazırda davam edir. Bütün bunlara baxmayaraq, Azərbaycan müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə kimi yaşadığı unikal ölkədir. Biz Vətən müharibəsində də öz milli və dini həmrəyliyimizin yüksək səviyyədə olmasını bütün dünyaya nümayiş etdirərək nümunəvi ölkə olduğumuzu sübuta yetirdik. Ölkəmizin istər İslam, istərsə də qeyri-islam dini icmalarının üzvləri birbaşa döyüşlərdə könüllü şəkildə iştirak edərək qəhrəmanlıq göstərdilər. Təsadüfi deyil ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan vətəndaşlarımız arasında bütün xalqların və dinlərin nümayəndələri var. İnanclı əsgər və zabitlərimiz Azərbaycan bayrağını azad olunmuş torpaqlarda uca zirvələrə qaldırdılar. Fikrimcə, milli və dini birliyimizi, həmrəyliyimizi daha da fəal nümayiş etdirmək üçün bütün dini məbədlərimizdə, ibadət evlərində Azərbaycan bayrağının dalğalandırılmasının zamanı çatmışdır.

# "Din və ideoloji təhlükəsizlik" adlı kitab nəşr olunub

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun "Din və ideoloji təhlükəsizlik" kitabı nəşr olunub.

Altı fəsildən ibarət olan kitabda beynəlxalq və regional münasibətlər sistemində din amili, dini ekstremizmin mahiyyəti və yaranma səbəbləri, dinin siyasiləşdirilməsi, dini təhlükəsizlik, din və hüquq problemləri ilə yanaşı, dinin ictimai həyatda rolu, dinlərarası və mədəniyyətlərarası dialoq məsələlərinə toxunulub. Nəşrdə Azərbaycanın dövlət-din münasibətlərinin inkişafı baxı¬mından nümunəvi ölkə olması, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din münasibətləri modelinin cəmiyyətin sağlam inkişafı, milli-mənəvi dəyərlərin qorunması, insanların dini etiqadına olan hörmət və ehtiram baxımından əvəzolunmaz xarakter daşıması oxucuların diqqətinə çatdırılıb.




Geniş oxucu auditoriyası üçün nəzərdə tutulan, beynəlxalq aləmdə dini təhlükəsizlik sahəsində baş verən proseslər və onların mahiyyəti, mövcud təhdidlər və onlarla mübarizə yollarının işıqlandırıldığı kitabdan din-siyasət münasibətlərinin tənzimlənməsi sahəsində çalışan mütəxəssislər, eləcə də siyasi şərhçilər, gənc tədqiqatçılar istifadə edə bilərlər.




2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyada özündən söz etdirməyi bacardı. Əminliklə deyə bilərəm ki, bu məğrurluğun əsasında dayanan ən mühüm amil xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq çox böyük bir tarix yazdılar. Ümumiyyətlə, torpağı vətən edən, onu müqəddəsləşdirən, özünü bu yolda qurban verən şəhidlərdir. Bu səbəbdən, onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzetinin 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.

## Abasov Davud Yalçın oğlu



Şəhid Abasov Davud Yalçın oğlu 1999-cu ilin noyabrın 19-da Cəlilabad rayonunun Sabirabad kəndinə anadan olub. Əslən Cəbrayıl rayonunundan olan Davud uşaqlıq və gənclik illərini Cəlilabadda keçirib. O, 2006-cı ildə Eldəniz Yusubov adına Cəlilabad rayonu Uzuntəpə kənd tam orta məktəbin 1-ci sinfinə gedib, 2017-ci ildə həmin məkəbin 11-ci sinfini bitirib. Hələ uşaqlıq illərindən hərb sənətinə marağı olan Davud məktəblilər arasında keçirilən müxtəlif yarışlarda iştirak edərək yüksək nailiyyətlər qazanaraq, fəxri fərmanlarla təltif edilib. O, 2018-ci ilin yanvarında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Cəbrayıl rayon şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin Qazax rayonunda yerləşən "N" saylı hərbi hissəsində sərhədçi əsgər kimi xidmət edib. Qəhrəmanımız Ermənistanla sərhəd postunda xidmət başında olarkən düşmən təxribatının qarşısının alınmasında şücaət göstərib və 1 mülki vətəndaşımızın həyatını xilas edib. Daha sonra isə sənədlərini Dövlət Sərhəd Xidmətinin "Gizir hazırlığı" kursuna verib və kursu müvəfəqiyyətlə bitirdikdən sonra "kiçik gizir" hərbi rütbəsi alıb. Dövlət Sərhəd Xidmətinin Çevik Hərbi Dəstəsinin (ÇHD) kursuna qəbul edilən qəhrəmanımız oranı da müvəfəqiyyətlə bitirdikdən sonra ÇHD-nin kiçik giziri kimi hərbi xidmətinə başlayıb. Davud dəfələrlə xüsusi təyinatlı snayper kurslarından keçib. O, Vətən müharibəsində DSX-nın ÇHD-nin snayperi kimi iştirak edib. Cəbrayıl və Füzuli rayonlarının, eləcə də Hadrut qəsəbəsinin düşmən işğalından azad edilməsi əməliyyatlarında döyüş tapşırığını uğurla yerinə yetirib. Kiçik gizir Abasov Davud 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə kiçik gizir Abasov Davud Yalçın oğlu "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abbaslı Elgin Ağayar oğlu



Canını Vətən yolunda əsirgəməyən igidlərimizdən biri olan şəhid Abbaslı Elgin Ağayar oğlu 1991-ci il mayın 16-da Laçın rayonunun Dəyhan kəndində dünyaya göz açıb. Qəhrəmanımızın ailəsi 1992-ci ildə məcburi köçkün kimi Sumqayıt şəhərinə gəlib. Sarıqaya qəsəbəsində məskunlaşıblar. O, 1997-ci ildə Laçın rayonu 21 nömrəli tam orta məktəbin 1-ci sinfinə qəbul olub, 2008-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2009-cu ilin iyulunda Laçın rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan qəhrəmanımız Silahlı Qüvvələrin Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəsində düşmənlə üzbəüz postlarda xidmət edib. Döyüş və fiziki hazırlığı ilə seçilərək keçirilən təlimlərdə adını ilk sıralara yazdırmağı bacaran Elgin 2011-ci ildə hərbi qulluğunu uğurla başa vurub.

Həyatının ilk illərindən məcburi köçkün taleyi yaşayan igidimiz hər zaman hərbiyə böyük maraq göstərib. Elə buna görə də o, 2014-cü ildə sənədlərini Silahlı Qüvvələrin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu müvəffəqiyyətlə bitirərək Bakı şəhərində yerləşən "N" saylı hərbi hissənin tibb bölüyündə sanitar sürücü vəzifəsinə təyinat alıb. Qısa müddət ərzində özünü peşəkar sürücü kimi təsdiq edən qəhrəmanımız ən çətin tapşırıqların öhdəsindən uğurla gəlib adından söz etdirməyi bacarıb.

2020-ci ilin sentyabrın 27-də Vətən müharibəsi başlayanda hər bir azərbaycanlı kimi Elginin də arzusu düşmən tapdağında olan torpaqları azad etmək, öz doğma kəndlərinə qayıtmaq idi. Cəbhə bölgəsindən uzaqda – xidmət yerində olan qəhrəmanımıza ilk günlərdən can atdığı müharibəyə qatılmaq oktyabrın əvvəlində qismət olur. O, Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd rayonlarında ən çətin və keçilməz ərazilərdə, düşmənin atəşi altında olan mövqelərdən yaralılarımızı çıxarıb, xəstəxanalara çatdırır, onların həyatda qalmasına yardımçı olurdu. Elgin təkcə sanitar sürücü xidməti göstərmirdi, həm də peşəkar hərbçi kimi digər əməliyyatlarda da yaxından iştirak edirdi. Arada vaxt tapıb ailəsi ilə danışmağı da unutmur, onlarla fəxrlə danışıb hər şeyin yaxşı olacağını deyirdi. Sonuncu dəfə müharibənin bitdiyi gün yaxınları ilə əlaqə saxlayıb onları qələbə münasibəti ilə təbrik edən qəhrəmanımıza bu sevinci çox yaşamaq qismət olmur. O, Şuşa şəhərindən qayıdarkən dumanlı havada səhvən getdikləri minalanmış ərazidə şəhid olur. Elgin Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunub.

Şəhidimiz ailəli idi. Onun yeganə övladı Nəzrinin atasının şəhadətindən sonra 1 yaşı tamam olub.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Abbaslı Elgin Ağayar oğlu ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abbaslı Hikmət Zahir oğlu



Şəhid Abbaslı Hikmət Zahir oğlu 18 yanvar 1999-cu ildə Beyləqan şəhərində anadan olub. O, 2006-cı ildə Fərman Hacıyev adına Beyləqan şəhər 2 nömrəli tam orta məktəbin 1-ci sinfinə gedib, 2017-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2017-ci ildə Bakı Humanitar Kollecinin muzey işi və abidələrin mühafizəsi ixtisasına daxil olub. Hikmət təhsilini dondurduqdan sonra 2018-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Beyləqan rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. O, Əlahiddə Ümumqoşun ordusunun Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəsinin kəşfiyyat bölüyündə hərbi xidmətdə olub. Hərbi qulluqda olduğu müddətdə özünü nizam-intizamlı, vəzifə borclarına layiqincə yanaşan, üzərində məsuliyyəti dərindən dərk edən bir əsgər kimi göstərib. Hikmət 2018-ci il iyul ayında hərbi xidmətini uğurla başa vurub. Daha sonra o, Bakı şəhərində siqnalizasiya və təhlükəsizlik işi ilə məşğul olan şirkətlərdən birində işə düzəlib.

2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər bir çoxu kimi Hikmətin də həyatının dönüş nöqtəsi olur. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-nin Beyləqan rayon şöbəsinə könüllü olaraq xidmət etmək üçün müraciət edib. Lakin 1 aydan çox vaxt keçsə də, heç hansı bir cavabın çıxmamasını görən qəhrəmanımız sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən "N" saylı motoatıcı hərbi hissəsinin kəşfiyyat taborunda kəşfiyyatçı kimi xidmətə başlayıb. Müddətdən artıq hərbi qulluğunun ilk ayında təlimlərdə iştirak edib və orada verilən tapşırıqların öhdəsindən uğurla gəlib.

Təcavüzkar Ermənistanın sentyabrın 27-də əl atdığı növbəti qanlı təxribatına cavab olaraq ordumuzun başladığı əks-hücum əməliyyatında Hikmət xidmət etdiyi hərbi hissənin tərkibində döyüşlərə qatılıb. O, Füzuli, Cəbrayıl, Hadrut və Şuşa istiqamətlərində gedən döyüşlərdə igidlik göstərib. Noyabrın 8-də Hikmətin xidmət etdiyi bölük verilən tapşırığı uğurla yerinə yetirərək Şuşaya daxil olub. Onun son döyüşü Şuşa ətrafında Şuşakəndlə Muxtarkənd arasında olub. O və bir neçə döyüş yoldaşı dumanlı havada yaralı gizirimizi xilas etmək üçün getdikləri yerdə mühasirəyə düşüblər. Onlar rəşadətlə döyüşsələr də, mühasirəni yarmağa müvəffəq olmayıblar. Belə ki, onlar ərazidəki yaralı hərbçimizi "UAZ" avtomobilinə mindirib mühasirəni yararkən düşmən tərəfindən "Faqot" ilə vurulub. Hikmət və yoldaşları qəlpə yarası alaraq şəhid olub. Ancaq yaralı gizirimiz meşədə sağ qalıb. Səhərisi gün – noyabrın 10-da döyüş yoldaşları onları ərazidən çıxarıblar. Qəhrəmanımız noyabrın 11-də – doğum günündə Beyləqan rayonunun Şəhidlər Xiyabanında dəfn edilib.

Qəhrəmanımız subay idi. Ailədə bir bacı, iki qardaş idilər.

Cəsurluğu və şücaəti ilə adını tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abbaslı Hikmət Zahir oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qeyd: Hikmət, əslində, 1998-ci ilin noyabrın 11-də anadan olub, ancaq sənədləşmə zamanı doğum tarixi 18 yanvar göstərilib.

***Hazırladı: Ramil Hikmət***

# AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

## 103 il əvvəl xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğın

Son iki yüz ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu qanlı səhifələr də yazılıb. Bu dəhşətli hadisələrdən biri 1918-ci ilin mart-aprel aylarında yaşanıb. 1918-ci ilin yazında ermənilər tərəfindən azərbaycanlılara qarşı amansız soyqırımı törədilib. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə qətlə yetirilib.

### Bəşər tarixinin ən qanlı faciələrdən biri

1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtdılar. Bakının böyük bir hissəsini xarabalığa çevirdilər. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirildi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirildi, şəhər və kəndlər yandırıldı, milli mədəniyyət abidələri dağıdılıb məhv edildi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını - ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. Martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü elan olundu. Bununla da azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verməyə cəhd göstərildi. Lakin Cümhuriyyətin süqutu bu sahədə başlanmış işi yarımçıq qoydu.

### Yetmiş il ərzində xalqımızın qan yaddaşını silməyə yönələn bütün cəhdlər nəticəsiz qaldı

Sovet hakimiyyəti dövründə təxminən 70 il xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmadı və nəhayət, həqiqət anı yetişdi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı və uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan əsl həqiqətlər açıldı. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Ulu Öndər Heydər Əliyev Fərmanında ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələləri diqqətə çatdırılır. Qeyd olunur ki, Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

### Erməni vəhşiliyi faktlarda

Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tüküürpədən səhnələri üzə çıxır. Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar genişləndirilir. Təkzibolunmaz arxiv sənədləri, soyqırımlarını təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır.

Məsələn, Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayına gəlincə, bəzi məlumatlarda bu rəqəmin 7 min, bəzilərində 8-12 min, hətta 40 min olduğu göstərilir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərində 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında azərbaycanlılar yaşayan 58 kəndə ermənilərin hücumu zamanı 3632 kişinin, 1771 qadının, 956 uşağın vəhşicəsinə öldürüldüyü qeyd olunurdu. Lakin ekspertlərin digər arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlı qətlə yetirilib. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın, 1277 nəfəri uşaq olub. Digər bir mənbədə isə Şamaxının 72 kəndində ermənilərin 7 min nəfəri, o cümlədən 1653 qadın və 965 uşağı öldürdüyü bildirilir. Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Komissiya öz işini dayandırdığından digər 34 kənd haqqında məlumat toplamaq mümkün olmayıb.

Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayının dəqiqləşdirilməsi ilə bağlı ötən əsrin 90-cı illərindən etibarən yerli tədqiqatçılar da bir sıra araşdırmalar aparıblar. Onların tədqiqatı nəticəsində (yüz nəfərə yaxın şahiddən toplanan xatirə və məlumatlar) müəyyən edilib ki, erməni cinayətkarları - S.Şaumyan, S.Lalayev, Z.Arestisyan, T.Əmirov və A.Əmiryan qardaşlarının rəhbərliyi ilə Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfər qətlə yetirilib. Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub.

N.Nərimanov Şamaxı qırğını haqqında belə yazırdı: "T.Əmirovun və S.Lalayevin əvvəllər Bakıda olan silahlı dəstələri yaşına və cinsinə məhəl qoymadan bütün azərbaycanlıları öldürdülər. Onlar hələ dünyada görünməmiş bir cinayət törətdilər, uşaqları süngü və qılıncdan keçirir, adamları məscidə toplayıb kerosin töküb yandırırdılar. Mənim üçün aydın oldu ki, Bakıda sovet hakimiyyəti daşnaklardan asılıdır. Bu da aydındır ki, erməni bandaları tərəfindən azərbaycanlı əhaliyə edilən bu qədər zülmdən sonra Azərbaycan proletariatının sovet hakimiyyətindən üz döndərməyə, öz burjuaziyasının hamiliyi altına keçərək, ondan və Türkiyədən kömək gözləməyə haqqı var idi".

Həmin dəhşətli günlərin şahidi olmuş alman A.Y.Kluqe qeyd edirdi ki, ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdı. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər.

M.Ə.Rəsulzadə A.Y.Kluqeyə istinadla yazırdı: "Kluqenin, digər əcnəbilərin o günlərin xatirəsi olmaq üzrə almış olduqları və bu gün əllərdə mövcud olan fotolar çox faciəli mənzərələri əks etdirir. Bir yığın qızlı-erkəkli cocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu məsum yavruları gəmirir... Çılpaq bir qadın yerə sərilmiş, ölmüş... bu ölü vücudun qurumuş məməsini canlı bir yavru əmməkdədir...".

Bakıda təkcə bir həftə ərzində 12 mindən çox insan, əksəriyyətini dinc sakinlər təşkil edən və əsas etibarilə müsəlman əhali vəhşicəsinə qətlə yetirilmişdi. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdi. Onlar cəsədləri yanan binalara atır, quyulara, dənizə tökürdülər. Bakıda Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tam hakimiyyətinin bərqərar olması qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Lakin İranın Bakıdakı konsulu Məhəmməd Səid-ol Vesarə Marağeyinin yazdığına görə, təkcə onun yaratdığı xüsusi komissiya tərəfindən Bakının küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanmış və dəfn olunmuşdu. Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur – yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər…"

Britaniya briqada generalı R.Qortonun Londona göndərdiyi 1918-ci il 8 dekabr tarixli sənəddə 20 min, Fövqəladə İstintaq Komissiyasının sənədlərində 30 min, Azərbaycan Respublikası Milli Məclisinin nəşr etdiyi kitabda isə 50 mindən çox müsəlmanın soyqırımına məruz qaldığı göstərilir. Yəqin ki, bu da son rəqəmlər deyil.

Paris Sülh konfransında Azərbaycan nümayəndə heyətinin rəhbəri Ə.Topçubaşov ABŞ Prezidenti V.Vilsona 1919-cu il 28 may tarixli müraciətində ona digər sənədlərlə yanaşı, Fövqəladə İstintaq Komissiyasının materiallarını da təqdim etmişdi. Bundan sonra obyektiv informasiya toplamaq üçün Cənubi Qafqaza ABŞ nümayəndə heyətinin göndərilməsi məqsədəuyğun sayılmışdı. Həmin ilin yayında Bakıya göndərilən general Harbord hadisələr barədə obyektiv məlumat toplamaq üçün müxtəlif şəxslərlə görüşmüşdü. Ümumiyyətlə, Bakıda fəaliyyət göstərən rus və erməni təşkilatları Fövqəladə İstintaq Komissiyasının normal işinə maneələr törədir, təzyiq kampaniyaları təşkil edirdilər. Lakin bütün çətinliklərə baxmayaraq, komissiya qısa müddətdə çox böyük işlər görə bildi.

### 74 il sonra təkrarlanan tarix və döyüş meydanında alınan qisas

Tarix 74 il sonra yenidən təkrarlandı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin zaman-zaman törətdikləri qanlı qırğınların davamı olan daha bir dəhşətli soyqırımı baş verdi. Hücum zamanı şəhərdəki 3 min nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürüldü, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralandı, 1275 nəfər girov götürüldü və insanı alçaldan işgəncələrə məruz qaldı.

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işində xüsusi mərhələ təşkil edir. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılır, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olur, Xocalı faciəsini soyqırımı kimi tanıyan dövlətlərin, beynəlxalq təşkilatların sayı getdikcə artır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ABŞ-ın iyirmidən çox ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

Ermənilərin tarix boyu xalqımıza qarşı törətdikləri bütün cinayətlərin cavabı ötən ilin sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində verildi. 200 ildən çoxdur ermənilərin "böyük Ermənistan" xülyası çərçivəsində törətdikləri vəhşiliklərin qisasını Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında aldı. Ermənistanın 30 il davam edən işğalına son qoyuldu, ölkəmizin ərazi bütövlüyü bərpa edildi.

### Ermənilərin bəşər cinayətləri ilə bağlı həqiqətlər dünya ictimaiyyətinə çatdırılır

Ulu Öndər Heydər Əliyevin tarixi Fərmanından ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir.

Prezident İlham Əliyevin 2018-ci il yanvarın 28-də imzaladığı Sərəncama əsasən, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşələrində yaşayan həmvətənlərimiz, diaspor təşkilatları, xaricdəki səfirliklərimiz tərəfindən geniş qeyd olunub. Erməni-bolşevik silahlı dəstələrinin 102 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə KİV-də məqalələr dərc edilir.

AZƏRTAC

# AZƏRBAYCANDAKI DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİ 31 MART SOYQIRIMI İLƏ BAĞLI DÜNYA İCTİMAİYYƏTİNƏ MÜRACİƏT ÜNVANLAYIBLAR

Azərbaycandakı dini konfessiyaların rəhbərləri 31 mart soyqırımı ilə bağlı dünya dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara müraciət ünvanlayıblar. Müraciətdə deyilir:

Azərbaycan Respublikasının vətəndaşları və milyonlarla dünya azərbaycanlılarının iradəsini ifadə edərək, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində müraciətimizi dünya ictimaiyyətinin, dini liderlərin, parlamentlər və beynəlxalq təşkilatların diqqətinə çatdırırıq.

Bütün müqəddəs kitablarda əksini tapan həqiqət budur ki, Uca Rəbbin yaratdığı bir insanı belə qətlə yetirmək – bütün bəşəriyyəti qətl etmək qədər ağır cinayət, bir insanı yaşatmaq isə bütün bəşəriyyəti yaşatmaq qədər savabdır. Dünya tarixində milli, irqi, dini mənsubiyyətinə görə törədilmiş soyqırımı faktları bəşəriyyətin qan yaddaşında "qara ləkələr" kimi qalır və insanlığa qarşı ən böyük və bağışlanılmaz günahlardan hesab olunur. Faciəvi soyqırımı cinayətlərinə məruz qalan xalqlardan biri də Azərbaycan xalqıdır və bu dəhşətli hadisələrin tarixi mahiyyətini dünya ictimaiyyəti bilməli, ədalətli qiymətini verməlidir.

XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda məqsədyönlü şəkildə kütləvi məskunlaşdırılan ermənilərin uydurma "böyük Ermənistan" xülyası ilə azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq yönündə atdıqları addımlar bu ərazilərdə tarixən yaşayan azərbaycanlılara və digər xalqlara qarşı kütləvi qətllərin və soyqırımı aktlarının reallaşması ilə nəticələndi. Erməni millətçilərinin xalqımıza qarşı iki əsrdən artıq davam edən ardıcıl təcavüz, etnik təmizləmə siyasəti, terror və vandalizm əməlləri səbəbindən azərbaycanlılar tarixən yaşadıqları indiki Ermənistan ərazisindəki doğma yurdyuvalarından didərgin salındılar. Erməni ekstremistlərinin Azərbaycana qarşı ərazi iddiaları bu gün də davam etməkdədir.

Tarixi faktlar bundan ibarətdir ki, 1905-ci və 1918-ci illərdə erməni ekstremistləri tərəfindən Bakıda və bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədilib, on minlərlə dinc insan qətlə yetirilib, yaşayış məntəqələri, tarix və mədəniyyət abidələri, məscidlər, kilsələr və sinaqoqlar dağıdılıb. Təkcə Mart soyqırımı — 1918-ci ilin 30 mart - 3 aprel tarixləri arasında Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində — Şamaxı, Quba, Dərbənd, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Qazax, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə daşnak erməni silahlı dəstələrinin törətdikləri soyqırımı nəticəsində on minlərlə insan milli və dini mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib. 1918-ci il Mart hadisələrində təkcə 3 gün ərzində Bakı şəhərində 12 mindən çox azərbaycanlı soyqırımına məruz qalıb, şəhərin tarixi məscid və məbədlərinə təcavüz edilib; Şamaxı qəzasının 53 kəndində 8027 nəfər, Şamaxı şəhərində 8 min azərbaycanlı amansızlıqla qətlə yetirilib, Şamaxının mərkəzi Cümə məscidinə od vurulub, içərisinə doldurulmuş qadınlar, uşaqlar diri-diri yandırılıb; Lənkəran qəzasında 2 min insan qətl edilib.

1918-1920-ci illərdə ermənilər tərəfindən indiki Ermənistan ərazisində yerləşən Zəngəzur və İrəvan qəzalarında, İranın Azərbaycan vilayətlərində və Gürcüstanda yaşayan azərbaycanlı əhaliyə, Qubada və Dərbənddə, həmçinin, yəhudi əhaliyə qarşı həyata keçirilən soyqırımı tarixi sənədlərdə öz əksini tapıb. Belə ki, Zəngəzur qəzasında 10068 nəfər azərbaycanlı öldürülüb; İrəvan quberniyasında 211 azərbaycanlı kəndi məhv edilib və əhalisi soyqırımına məruz qalıb; Urmiya, Maku, Təbriz, Xoy və Səlmasda 120 mindən artıq azərbaycanlı qətlə yetirilib; Gürcüstanın azərbaycanlılar yaşayan Borçalı mahalında, Tiflisin azərbaycanlılar yaşayan tarixi məhəllələrində 5 minə yaxın azərbaycanlı məhv edilib; Quba qəzasında, habelə Dərbənddə 16 mindən çox azərbaycanlı öldürülüb; 162 kənd dağıdılıb, 3 minə qədər yəhudi vəhşicəsinə qətlə yetirilib.

Tarixi arayış üçün bildirək ki, XX əsrin əvvəllərində erməni ekstremistlərinin kütləvi qırğın siyasətinin izləri Orta Asiyada, Türküstanda da mövcud olub. 1918-1922-ci illərdə Özbəkistanın Fərqanə vadisində ermənilər tərəfindən 35 mindən artıq özbək müsəlmanın həyatına son qoyulması, erməni daşnakları tərəfindən Kokand şəhərinin yandırılması, burada bir gün ərzində on mindən çox, Əndicanda isə beş minə yaxın insanın məhv edilməsi, Qırğızıstanda Suzak, Bazar-Korgon kəndlərinin bütün sakinlərinin güllələnməsi tarixi mənbələrdən məlumdur.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti sovet hakimiyyəti dövründə də davam etdirildi. 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlı Zəngəzurdakı, 1988-1990-cı illərdə isə Ermənistanın digər ərazilərindəki ata-baba yurdlarından deportasiya edildi və faktiki olaraq əzəli Azərbaycan ərazilərində yaradılmış Ermənistan Respublikası monoetnik dövlətə çevrildi.

Ötən əsrdə 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində təcavüz siyasətini davam etdirən Ermənistan dünya birliyi tərəfindən tanınan ərazilərimizin 20 faizini - Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonu genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində işğal etdi, bir milyondan çox azərbaycanlı doğma yurdlarından didərgin salındı. 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin Xocalıda, Ağdabanda, Daşaltıda həyata keçirdikləri soyqırımı aktları onların törətdikləri vəhşiliklərin ikrahdoğurucu nümunələridir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan ordusu bölmələrinin Xocalı şəhərinə qəfil silahlı basqın edərək oranın dinc, silahsız əhalisinə qarşı amansız kütləvi qırğın törətməsi, qocalar, uşaqlar, hamilə qadınlar da daxil olmaqla 613 nəfərin xüsusi qəddarlıqla qətlə yetirilməsi, 150 nəfərin itkin düşməsi, 1275 nəfərin əsir götürülərək ağır işgəncələrə məruz qoyulması ilə müşayiət olunmuş Xocalı faciəsi Holokost, Hernika, Xatın, Srebrenitsa, Ruanda soyqırımları kimi insanlığa qarşı törədilmiş cinayətlərlə bir sıradadır və dünya tərəfindən soyqırımı kimi tanınmalıdır.




Ermənistan ordusu işğal etdiyi Azərbaycan torpaqlarında vandalizm aktları həyata keçirərək minlərlə tarixi, dini, mədəniyyət abidələrimizi, ziyarətgah və qəbiristanlıqlarımızı, İslam, xristian və yəhudi məbədlərini məhv edib, həqarətə məruz qoyub, Qarabağda tarixən mövcud olmuş qədim alban, müsəlman, pravoslav dini və mədəni irsini yoxa çıxarmaq yönündə məqsədyönlü iş apararaq mədəni-mənəvi irs nümunələrimizi ya sıradan çıxarıb, ya da tarixini, mənşəyini saxtalaşdıraraq özününkiləşdirib - erməniləşdirib, qriqoryanlaşdırıblar. Təkcə Qarabağ ərazisində fəaliyyətdə olan 67 məsciddən 64-ü Ermənistanın işğalı dövründə yerlə-yeksan edilib. Halbuki, bütün bu illər ərzində Azərbaycanın paytaxtı Bakı şəhərinin mərkəzində erməni kilsəsi, kitabxanası abad şəkildə qorunub saxlanılmaqdadır və on minlərlə erməni əsilli vətəndaşımız ölkəmizdə əmin-amanlıq şəraitində yaşayır.

2020-ci il iyul-sentyabr aylarında Ermənistan silahlı qüvvələri Azərbaycan-Ermənistan sərhəddində və Azərbaycanın Qarabağ ərazilərində yeni hərbi təxribatlara başladılar və sentyabrın 27-də irimiqyaslı hərbi təcavüz edərək dinc əhali və mülki infrastruktura qarşı ağır artilleriya zərbələri endirməklə işğal ərazisini genişləndirməyə cəhd göstərdilər. Bunun nəticəsi olaraq, Azərbaycan xalqı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək mübarizəyə qalxdı, öz Ordusunun gücü ilə 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad etdi. Bununla da beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərini yerinə yetirdi, öz ərazi bütövlüyünü bərpa etdi.

Biz, Azərbaycanda əsrlər boyu sülh və əmin-amanlıq şəraitində yaşayan dini icmaların rəhbərləri kimi Cənubi Qafqaz bölgəsində bütün xalqlar, dinindən və milli mənsubiyyətindən asılı olmayaraq bütün insanlar arasında, Uca Yaradanımızın müqəddəs kitablarda bizlərə buyurduğu kimi, qarşılıqlı anlaşmanın bərqərar edilməsinin tərəfdarıyıq. Azərbaycan dövlətinin siyasi xətti bundan ibarətdir ki, müharibə, ərazi iddiaları, nifrət, dini və etnik ayrı-seçkilik, revanşizm kimi meyllərə son qoyulmalı, dövlətlər arasında sabitlik hökm sürməli, davamlı iqtisadi inkişaf yolunda səylər göstərilməlidir. Azərbaycanın dövlət rəhbərinin siyasi iradəsinə görə, bölgədə, Azərbaycanda bütün xalqlar, o cümlədən, erməni əsilli Azərbaycan vətəndaşları birlikdə, bərabər hüquqlarla mehriban qonşuluq şəraitində yaşamalıdırlar.

Regionumuzda olan bütün dini icmalar, ələlxüsus Erməni Apostol Kilsəsi bu istiqamətdə fəal çalışmalı, müharibə deyil, sülhü və dialoqu təşviq etməli, sülhpərvər və humanist ideyaları təbliğ etməlidir. Lakin təəssüflər olsun ki, erməni din xadimləri qonşu xalqlara qarşı təcavüzü dəstəkləyir, xaricdəki erməni diasporunun və lobbisinin imkanlarını səfərbər edərək hazırda erməni terrorçuları və ekstremistlərinin revanşist, radikal, ksenofob, faşizm xislətli əməllərinə bəraət qazandırmağa çalışırlar. Öz işğalçı niyyətlərini, özgə torpağına iddialarını ört-basdır etmək üçün iftira təbliğatlarını dini zəmində təəssübkeşlik üzərində quraraq özlərini dünyaya məzlum qurbanlar kimi təqdim edirlər. Bir əlində xaç, bir əlində silah müharibə təbliğ edən, xalqını işğalçı müharibəyə, dinlərarası müstəvidə toqquşmaya sövq edən erməni kilsəsi öz məsuliyyətini, nəhayət, dərk etməlidir.

Biz, Azərbaycandakı dini konfessiya rəhbərləri dünya dini liderlərinə, parlamentlərinə, beynəlxalq təşkilatlara müraciət edir, Vətənimiz Azərbaycanda erməni ekstremistlərinin Azərbaycan xalqına qarşı törətdikləri qətliamlara siyasi-hüquqi qiymət verməyə, törədilmiş hadisələrin bütöv bir xalqa qarşı planlı surətdə həyata keçirilən soyqırımı aktları kimi tanınmasına çağırırıq.

Qoy Uca Yaradan hamımıza həqiqəti yanlışdan seçməkdə və ədalətli olmaqda yardımçı olsun! AMİN!"

Müraciəti Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev, Alban-udi xristian icmasının rəhbəri Robert Mobili, Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri Aleksandr Şarovski imzalayıblar.

# AZƏRBAYCAN ZİYALILARI UNESCO-YA MÜRACİƏT ÜNVANLAYIB

Bir qrup Azərbaycan ziyalısı UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət edib. Müraciətdə deyilir:

"Hörmətli Baş direktor,

Biz Ermənistanın həyata keçirdiyi siyasət nəticəsində bu ölkə ərazisində Azərbaycan xalqına məxsus yüzillərlə tarixə malik mədəni irsin tamamilə yox olması təhlükəsi ilə bağlı ciddi narahatlığımızı bölüşmək üçün sizə müraciət edirik.

Ermənistanda yaşamış və bu yerlərin köklü sakinləri olan azərbaycanlılara qarşı XX əsrin əvvəllərindən etibarən aparılmış etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlılar öz dədə-baba torpaqlarından kütləvi deportasiyaya məruz qalmışlar. Sonuncu deportasiya 1988-ci ildə həyata keçirildi və 250 mindən çox azərbaycanlı öz doğma yurdlarından qovularaq qaçqına çevrildi. Bununla da, Ermənistan tərəfindən həyata keçirilən məqsədyönlü və sistematik deportasiya siyasəti nəticəsində azərbaycanlıların Ermənistandan qovulması prosesi sona çatdı.

Bu gün Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ermənistan məqsədli şəkildə bu ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izlərini hər yerdən silir, Azərbaycan xalqının mədəni irsini talayır, dağıdır, özünküləşdirir və mənşəyini dəyişdirir. Azərbaycan kəndlərinin tarixi adları kütləvi şəkildə dəyişdirilib, qədim toponimlər erməni adları ilə əvəz edilib.

İrəvan quberniyasında yerləşən Göy məscid, Qala Məscidi, Şah Abbas, Təpəbaşı, Zal Xan, Sərtib Xan, Hacı Novruzəli Bəy, Dəmirbulaq, Hacı Cəfər Bəy, Rəcəb Paşa, Məhəmməd Sərtib Xan, Hacı İnam məscidi kimi 300-dən çox məscid XX əsrin əvvəllərində qəsdən dağıdılıb, özünküləşdirilib və ya digər məqsədlərlə istifadə edilib. Yalnız Dəmirbulaq məscidi 1988-ci ilə kimi öz təyinatı üzrə fəaliyyət göstərib, indi isə o, tamamilə dağıdılıb və yerində çoxmərtəbəli bina inşa edilib.

Ermənistanda azərbaycanlılara məxsus Ağadədə, Aşağı Şorca, Güllübulaq, Saral qəbiristanları kimi 500-dən çox qəbiristan məhv edilib. Bu il Azərbaycan xalqının 200 illik yubileyini qeyd etdiyi, qədim Göyçə mahalında, doğulduğu kənddə qəbirüstü abidəsi ucaldılmış Aşıq Ələsgərin də qəbri dağıdılıb. Bəşəriyyətin qeyri-maddi mədəni irs nümunələri siyahısına salınan Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi olan Aşıq Ələsgərin qəbirüstü bütövlükdə dağıdılması bir daha Ermənistanın heç bir ümumbəşəri dəyər tanımadığını nümayiş etdirir. Bu, bütün dinlər tərəfindən qəbuledilməzdir və heç bir mənəviyyata sığmır.

Onillərlə davam edən vandallıq əməllərinə görə bir nəfərin belə cəzalandırılmaması Ermənistanda bu işlərin dövlət siyasəti olmasının növbəti sübutudur.

Azərbaycan xalqının mədəni irsinin qəsdən dağıdılması, bir hissəsinin mənimsənilməsi, başqa xalqların irsi kimi qələmə verilməsi onu göstərir ki, Ermənistan hətta azərbaycanlıların bu torpaqlarda tarix boyu yaşaması və zəngin mədəniyyət yaratması faktını belə inkar edir. Bu, Ermənistanda Azərbaycan xalqına qarşı mövcud olan dözümsüzlüyün bariz nümunəsidir.

Mədəni abidələrin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi və özünküləşdirilməsi beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il Cenevrə Konvensiyalarının, UNESCO-nun 1954-cü və 1970-ci il Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Bunlar müharibə cinayətləridir. BMT Təhlükəsizlik Şurasının 2017-ci ildə qəbul etdiyi 2347 saylı tarixi qətnaməsinin də müəyyən etdiyi kimi, mədəni irsin qəsdən dağıdılması, həmçinin sülh və təhlükəsizlik məsələsidir.

Hörmətli Baş direktor,

Yuxarıdakıları qeyd etməklə, biz sizi Ermənistanda Azərbaycan xalqına məxsus olan mədəni irsin hazırkı vəziyyəti barədə ətraflı hesabat təqdim etmək məqsədilə Ermənistan hökumətinə rəsmi sorğu göndərməyə çağırırıq. Biz, həmçinin sizdən Azərbaycan xalqının əsrlərlə tarixi olan mədəni və tarixi irsinin hazırkı vəziyyətinin qiymətləndirilməsi üçün Ermənistana ekspert qrupunun göndərilməsini xahiş edirik.

UNESCO-nun öz konstitusiyası ilə ona verilmiş vasitəçilik mandatına güvənir və sizdən bu təşəbbüsün reallaşdırılması ilə bağlı UNESCO-nun rəsmi mövqeyinə dair bizi məlumatlandırmağınızı xahiş edirik.

Tarix: 25 mart 2021-ci il"

İmza edənlər:

1. Kamal Abdulla - Azərbaycan Yaradıcılıq Fondunun rəhbəri, Xalq yazıçısı, akademik;
2. Fərhad Bədəlbəyli - pianoçu, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru;
3. Elbay Qasımzadə - Azərbaycan Memarlar İttifaqının sədri;
4. Əziz Ələkbərli - Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri, Milli Məclisin deputatı;
5. Hikmət Məmmədov - "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı;
6. Aqil Abbas - "Ədalət" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı;
7. Mənsum İbrahimov - Xalq artisti, professor;
8. Fatma Səttarova - Respublika Veteranlar Təşkilatının sədri, II Dünya müharibəsi veteranı;
9. Bəyimxanım Verdiyeva - Xan Şuşinski Fondunun rəhbəri;
10. Elçin Mirzəbəyli - "Xalq cəbhəsi" qəzetinin baş redaktoru;
11. Nurəddin Mehdiyev - "Virtual Qarabağ" İnformasiya Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin sədri;
12. Aybəniz İsmayılova - "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri;
13. Rauf Zeyni - Milli QHT Forumunun prezidenti;
14. Anastasiya Lavrina - "Azərbaycanın Rus İcması"nın sədr müavini;
15. Faiq İsmayılov - "Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri;
16. Umud Mirzəyev - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri;
17. Davud Rəhimli - Əlil Təşkilatları İttifaqının sədri;
18. Günel Səfərova - "Vətəndaş" Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri;
19. Əvəz Həsənov - "Humanitar Tədqiqatlar" İctimai Birliyinin sədri;
20. İlqar Orucov - "Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti" İctimai Birliyinin sədri;
21. Azər Qərib - Azərbaycan Turizm Blogerləri Assosiasiyasının sədri;
22. Nüşabə Məmmədova - Beynəlxalq Dialoq və İnkişaf Alyansının sədri.

# 31 MART-AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ BAĞLI BÖLGƏLƏRDƏ TƏDBİR KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələri 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar onlayn formatda anım tədbirləri keçiriblər. Bu qəbildən olan tədbirlər:

**29 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı, Sabirabad, İmişli, Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Lənkəran, Astara və Lerik rayonlarında fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə;

**30 mart** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə "1918-ci il soyqırımı ermənilər tərəfindən azərbaycanlılara qarşı XX əsrdə törədilmiş ən dəhşətli faciələrdən biridir" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar Rayon İcra Hakimiyyəti (RİH), Biləsuvar rayon Gənclər və İdman İdarəsi və Biləsuvar rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Neftçala rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Rəhim Tağıyev adına Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyi və "Yeni həyat" qəzetinin birgə təşkilatçılığı ilə "31 mart-tarixi yaddaşımızdan silinməyən soyqırımı" mövzusunda baş tutub.

Dövlət Komitəsinin və yerli dövlət qurumlarının əməkdaşlarının, QMİ-nin bölgələrdə fəaliyyət göstərən səlahiyyətli nümayəndələrinin, dini icma sədrləri, din xadimləri və dindarların qatıldığı videokonfranslar zamanı əvvəlcə soyqırımı qurbanlarının, həmçinin ərazi bütövlüyümüz uğrunda qəhrəmancasına həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışlar zamanı 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir və Lənkəran ilə yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzur, Naxçıvan, Şərur, Ordubad, Qars və başqa bölgələrdə davam etdirilməsi nəticəsində yüz minlərlə azərbaycanlının ən qəddar üsullarla qətlə yetirildiyi, bir milyondan çox insanın öz doğma torpaqlarından didərgin salındığı bildirilib. Natiqlər azərbaycanlıların soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətləri barədə danışıblar. Qeyd edilib ki, 1998-ci il martın 26-da Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalayıb və həmin gündən başlayaraq 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Bu hadisənin xalqımızın tarixi yaddaşında əbədi və silinməz yer tutduğu, mənfur bolşevik-daşnak qüvvələri tərəfindən törədilən soyqırım zamanı on minlərlə insanın həlak olduğu diqqətə çatdırılıb. Həmçinin vurğulanıb ki, müzəffər Ali Baş Komandan



İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Vətən müharibəsində tarixi qələbə qazanıb, torpaqlarımız düşmən tapdağından azad edilib, soyqırımı qurbanları və şəhidlərimizin qisası alınıb.

Daha sonra çıxış edən tədbir iştirakçıları bildiriblər ki, 31 mart soyqırımı qurbanları daim yad edilməli, bu məlumatlar yetişməkdə olan gənc nəslə çatdırılmalıdır.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2018

## LİBREVİL

Qabon Respublikası ekvatorun ikiyə böldüyü Qərbi Afrika ölkəsidir. Adı Komo çayının formasına görə "qabao" sözündən əmələ gəlmiş və palto mənasını verir.

Qərbdən Atlantik okeanı (Qvineya körfəzi), şimal-qərbdən Ekvatorial Qvineya, şimaldan Kamerun, şərqdən və cənubdan Konqo ilə həmsərhəd olan ölkənin ümumi sahəsi 267.667 km², əhalisi isə təxminən 2.265.000 nəfərdir. Tarixi və ekoloji amillər 1900-1940-cı illərdə əhalinin sayının azalmasına səbəb olmuşdur. Qabon Afrikada ən aşağı əhali sıxlığına sahibdir.

Ölkənin qədim sakinləri piqmilərdir. Onlar yer üzünün ən qısaboylu insanları hesab olunurlar. Kişilərin orta boyu 1.43 m., qadınların isə 1.36 m-dir. Piqmilər bu gün bütün qitəyə səpələnsələr də, Qabonun əhalisinin əksəriyyəti bantu mənşəlidir. Hazırda Qabonda fərqli dil və mədəniyyətlərə sahib 40-dan çox etnik qrup yaşamasına baxmayaraq, digər Afrika ölkələrindən fərqli olaraq burada etnik münaqişələrə rast gəlinmir. Səbəb kimi qəbilələr arasında qohumluq əlaqələrinin olması göstərilir. Etnik qruplar arasında ən böyüyü fanqlar olsa da, son siyahıyaalmada nzebilər üstünlük təşkil etmişdir. Siyahıda daha sonra myene, kota, şira, puru və kande qəbilələri gəlir.



*İkinci Həsən məscidi*

Qabon bir vaxtlar Fransanın müstəmləkəsi olmuş, 17 avqust 1960-cı ildə müstəqillik əldə etmişdir. Amma müstəmləkənin izləri hələ də qalmaqdadır. Çünki Qabonun rəsmi dili fransız dilidir. Dil və mədəniyyət sahəsində olduğu kimi, din baxımından da Fransanın təsir dairəsində olan Qabon əhalisinin əsas dini Xristianlıqdır (katolik və protestantlıq). Əhalinin inanc sisteminə Bviti, İslam və yerli animistik dinlər də daxildir. Bir çox insan həyatlarında həm Xristianlığın, həm də ənənəvi yerli dini inancların elementlərini tətbiq edir. Qabon əhalisinin təxminən 73%-ni xristianlar, 12%-ni müsəlmanlar, 10%-ni ənənəvi yerli dini inancların daşıyıcıları, 5%-ni isə heç bir dinə etiqad etməyənlər və ya ateistlər təşkil edir.

Ölkə nüfuzunun 87.1%-i şəhərlərdə, qalanı isə kəndlərdə məskunlaşıb. Librevil, Port-Jantil, Fransvil, Ovendo, Oyem, Moanda ölkənin böyük şəhərləridir. Kifayət qədər təbii ehtiyatları və xarici investisiyalar Qabonu bölgənin ən zəngin ölkələrindən birinə çevirib. Dünyanın dördüncü ən böyük manqan yataqlarına sahib olan ölkədə neft və uran yataqları da iqtisadiyyata böyük töhfə verir. Mədənçilik və neft xaricində digər vacib fəaliyyət sahəsi taxta-şalban ixracıdır. Neft kəşf edilənə qədər ölkə iqtisadiyyatının əsasını taxta və manqan ixracı təşkil edirdi. 2010-2016-cı illərdə neft Qabon ixracatının təxminən 80%-ni, ÜDM-nin 45%-ni və dövlət büdcəsinə daxil olan gəlirlərin 60%-ni təşkil edirdi. Qabonun valyutası Mərkəzi Afrika frankıdır.

Qabon 1961-ci il konstitusiyasına əsasən prezidentli respublikadır. Prezident ümumi səsvermə yolu ilə yeddi illik müddətə seçilir. 2003-cü il konstitusiya dəyişikliyi ilə prezidentlik müddətinin məhdudlaşdırılması ləğv edilmişdir. Prezident baş naziri, nazirlər kabinetini və müstəqil Ali Məhkəmənin hakimlərini təyin və vəzifədən azad edə bilər. Prezidentin Milli Məclisi buraxmaq, qanunların icrasını təxirə salmaq və referendum keçirmək kimi səlahiyyətləri var. Qabon parlamenti iki palatadan ibarətdir. Yuxarı palata Senat, aşağı palata isə Milli Məclisdir. Senat 6 il müddətinə seçilən 102 senatordan, Milli Məclis isə 5 il müddətinə seçilən 120 millət vəkilindən ibarətdir.

Qabonun paytaxtı və ən böyük şəhəri olan Librevil ölkənin şimal-qərbindəki Estuariy əyalətində, Qvineya körfəzinin sahilində, Komo çayı üzərində yerləşir. Şəhərin əsasını 1848-ci ildə fransız donanması tərəfindən satmaq məqsədilə qul daşıyan, Braziliyaya aid "L'Elizia" gəmisindən azad olunan qullar qoymuşdur. Librevil fransız dilindən tərcümədə "azad şəhər" deməkdir.

Şəhərdə gəmi sənayesi, pivə sənayesi və mişar fabrikləri yerləşir. Şəhərin əsas limanından və Ovendodakı limanından ağac, kauçuk, kakao kimi xammal ixrac olunur. Qabonun bir çox hökumət binaları, banklar, ali təhsil ocaqları paytaxtda yerləşir.

Librevilin Atlantik okeanın sahilində yerləşməsi və ecazkar təbiəti turizmin inkişafına səbəb olub. Bundan başqa, şəhərin tarixi abidələri də turislərin marağını cəlb edir. Şəhərdə daha çox yeni dövr və daha sonra inşa edilmiş kilsələri görmək mümkündür. Buna misal kimi, Santa Mariya kilsəsini göstərmək olar. 1958-ci ildə Yepiskop Adama tərəfindən tikilmiş kilsə keçmiş Fort d'Aumale qalasının yerində, sahil yaxınlığında yerləşir. 1981-ci ildə II İohann Pavel buranı ziyarət etib. Kilsənin arxasındakı Notr-Dam kilsəsi əslində XIX əsrə aiddir, lakin binası duzlu su və nəmişliyə görə dağılıb. Digər kilsə Müqəddəs Maykl Nkembo kilsəsidir.

Qabonun ən böyük məscidi olan II Həsən məscidi Librevildə yerləşir. Paytaxtın mərkəzindəki prezident sarayının qarşısında inşa edilən, 1983-cü ildə açılışı olan məscidin ümumi sahəsi 1,5 hektardır. Məscidin namaz salonu 3500 m², minarəsi 40 m-dir. Böyüklüyünə görə ikinci məscid Mərkəzi Məscid hesab olunur.

Librevilin görməli yerlərindən biri də Qabon Milli Muzeyidir. Burada Qabonun tarixinə aid tarixi eksponatlar sərgilənir.

Librevil 2018-ci ildə İslam Mədəniyyətinin paytaxtı seçilib.

**Hazırladı:** Tural VƏLİZADƏ

# DÜŞƏNBƏ MDB-NİN MƏDƏNİYYƏT PAYTAXTI ELAN EDİLİB

Tacikistanın paytaxtı Düşənbə 2021-ci ildə Müstəqil Dövlətlər Birliyinin (MDB) mədəniyyət paytaxtı elan edilib. Bununla bağlı açıqlama Düşənbədəki Sədrəddin Ayni adına Opera və Balet Teatrında elan olunub.

MDB İcraiyyə Komitəsi sədrinin müavini Baketjan Jumanqulov və MDB Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondun icraçı direktoru Anatoli İksanov öz çıxışlarında "Birliyin Mədəniyyət paytaxtları" Dövlətlərarası Proqram haqqında məlumat veriblər, "MDB-nin Mədəniyyət paytaxtı-2021" sertifikatını Düşənbə şəhərinin sədri Rüstəm Emamaliyə təqdim ediblər.



Sonra Düşənbə şəhərinin MDB-nin mədəniyyət paytaxtı elan olunması ilə əlaqədar sənədli film nümayiş etdirilib, Tacikistanın və Müstəqil Dövlətlər Birliyinin üzvü olan digər ölkələrin incəsənət xadimlərinin ifasında geniş konsert proqramı olub.

Xatırladaq ki, 2015-ci ildə Gəncə, 2017-ci ildə isə Qəbələ şəhəri MDB-nin mədəniyyət paytaxtı olub.

# ICESCO-NUN BAŞ DİREKTORU DAĞIDILMIŞ İSLAM MƏDƏNİYYƏTİ ABİDƏLƏRİNİN BƏRPASI PROQRAMLARINI DƏSTƏKLƏMƏYƏ ÇAĞIRIB

"Doha İslam Dünyasının Mədəniyyət Paytaxtı-2021"-in açılış mərasimi keçirilib.

Qətər paytaxtının ərəb regionunda İslam dünyası mədəniyyəti paytaxtı elan edilməsinin əhəmiyyətindən bəhs edən İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik virtual mərasimdə bu çərçivədə Qətər dövləti ilə keçiriləcək birgə tədbirlərdən bəhs edib. O diqqətə çatdırıb ki, İslam mədəniyyəti paytaxtı tədbirləri şəhərlərin tarixini, mədəni irsini və turizm potensialını tanıtmaq baxımından çox əhəmiyyətlidir.

ICESCO-nun Baş direktoru bildirib ki, təşkilatın İslam dünyasının mədəniyyəti paytaxtı proqramını həyata keçirdiyi 2005-ci ildən bəri 50 şəhərdə bu tədbirlər təşkil edilib. Həmin paytaxtlarda olan zəngin mədəni irs ilə yanaşı, onların yerləşdiyi ölkələrdə İslam sivilizasiyasının nümunələri də təbliğ olunub.

Salim əl-Malik təəssüflə qeyd edib ki, silahlı münaqişələrin baş verdiyi bir çox İslam ölkəsində tarixi mədəniyyət abidələri vandallar tərəfindən dağıdılıb. O, təşkilata üzv ölkələri və Qətəri həmin maddi mədəni irs abidələrinin bərpası istiqamətində həyata keçiriləcək tədbirləri dəstəkləməyə çağırıb.

# QISA-QISA

*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə dünyada yayılmış koronavirus (COVID-19) pandemiyasının qarşısının alınması məqsədilə ötən ilin mart ayının 24-dən etibarən Azərbaycanda xüsusi karantin rejimi elan edilmişdir. Bununla əlaqədar ölkə üzrə tətbiq olunan məhdudiyyət və tövsiyələrə əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində də (DQİDK) vətəndaşların qəbulu martın 17-dən etibarən dayandırılmış, ancaq DQİDK-nın "qaynar xətt"inə, "www.scwra.gov.az" rəsmi saytının "Jivochat" onlayn müraciət proqramına, rəsmi elektron poçt ünvanına və sosial şəbəkələrdəki rəsmi səhifələrinə daxil olan yüzlərlə müraciət cavablandırılmış, vətəndaşların qısa zamanda müvafiq məsələlərlə bağlı məlumat və cavab almaları operativ şəkildə təmin edilmişdir. Bununla yanaşı, Dövlət Komitəsi pandemiya dövründə də ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən hamı üçün çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini davam etdirmişdir. Bu məqsədlə Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir. Cari ay ərzində bu qəbildən olan maarifləndirmə tədbirləri:*

**2 mart** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda;

**4 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Şəhər Təhsil Şöbəsi (ŞTŞ) və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda;

**5 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba Rayon Təhsil Şöbəsi (RTŞ) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə Quba rayonunda fəaliyyət göstərən məktəblərin psixoloqları üçün "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda;

**11 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Qusar RTŞ və QMİ-nin Qusar rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə "Vətənpərvərlik: milli və mənəvi dəyər kimi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**12 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsindəki önəmi" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yeni Azərbaycan Partiyasının Gəncə şəhər və Yevlax rayon təşkilatlarının birgə təşkilatçılığı ilə "Erkən nikah, yarımçıq qalan təhsil" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara RTŞ-nin birgə təşkilatçılığı ilə "Erkən nikah və onun fəsadları" mövzusunda;

**15 mart** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Narkomaniya ilə mübarizə istiqamətində din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı Rayon İcra Hakimiyyəti (RİH), İsmayıllı rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Gənclər arasında erkən nikah hallarına qarşı mübarizə" mövzusunda;

**16 mart** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Narkomaniya ilə mübarizədə din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən RTŞ-nin birgə təşkilatçılığı ilə Siyəzən rayonunda fəaliyyət göstərən məktəblərin psixoloqları üçün "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda;

**17 mart** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Biləsuvar rayonunda fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə "Narkomaniyaya qarşı mübarizə istiqamətində din xadimlərinin müxtəlif platformalarda söhbət və çıxışlarının təşkili" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə 2016-cı il dörd günlük Aprel müharibəsində qazanılan qələbənin beş illiyi münasibətilə "Aprel savaşı - Böyük Zəfərin müqəddiməsi" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Şamaxı rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**18 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Erkən nikah problemi, məişət zorakılığı və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda;

**19 mart** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay şəhər Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Göyçay nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən video-konfranslar zamanı gənc nəslin mənəvi dəyərlərə bağlılıq ruhunda yetişdirilməsinin vacibliyindən danışılıb. Bildirilib ki, məktəblilərin mənəvi cəhətdən yetişməsi üçün çoxsaylı tədbirlər keçirilməli, onlarla fərdi iş aparılmalıdır. Qeyd olunub ki, Azərbaycan dövləti mənəvi dəyərlərin təbliğ olunması və ənənəvi dini baxışlarımızın qorunub saxlanması sahəsində layihələr icra etməkdədir.

Çıxışlar zamanı cəmiyyətimizdə erkən nikahların yaratdığı mənəvi, sosial və hüquqi zərərlər haqqında da danışılıb. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu barədə məlumat verən natiqlər erkən nikah mövzusunu uşaq hüquqlarının pozulması kontekstində izah ediblər. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin daha intensiv aparılmasının vacibliyini vurğulayıblar. Din xadimlərinin məsələyə həssas yanaşmalı olduğu və onların üzərinə müəyyən vəzifələrin düşdüyü nəzərə çatdırılıb.

Tədbirlərdə ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri haqqında ətraflı məlumat verilib, bu günün gənclərinin gələcək nəslin davamçıları kimi dini radikalizm və dini ekstremizm barəsində məlumatlı olmasının vacibliyi vurğulanıb. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar qardaşlıq, dostluq və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Multikulturalizmin xalqımızın həyat tərzi olduğunu vurğulayan natiqlər məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyətə yad olduğunu bildiriblər. O cümlədən 44 günlük Vətən müharibəsi zamanı böyük tarixi zəfərin əldə edilməsində tolerantlıq ənənələrinin və multikultural dəyərlərin formalaşdırdığı milli birliyin və həmrəyliyin rolu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan video-konfranslar qarşılıqlı diskussiya şəklində baş tutub. Çıxış edənlər öz təkliflərini səsləndiriblər. Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## BRİTANİYADA MÜSƏLMANLAR ETİRAZ AKSİYASI KEÇİRİBLƏR



Böyük Britaniyanın Qərbi Yorkşir qraflığının Betli şəhərində orta məktəb müəlliminin şagirdlərə Məhəmməd peyğəmbərin (s) karikaturasını göstərməsi müsəlmanların etirazına səbəb olub.

Britaniya mətbuatı bu hadisəni işıqlandırdıqdan sonra qraflığın digər şəhərlərində də kütləvi aksiyalar keçirilib. Aksiyada iştirak edən müsəlmanlar islamofobiyaya və inanclı insanların heysiyyətinə toxunmağa son qoymağı tələb ediblər. Valideynlərdən biri "Sky news" kanalına verdiyi müsahibəsində bildirib ki, müəllim Fransada dərc olunan "Charlie Hebdo" jurnalından dərs vəsaiti kimi istifadə edərək, nəşrdə İslam peyğəmbərinin (s) karikaturasını şagirdlərə göstərib.

Məktəbin rəhbərliyi etirazçılardan üzr istəyərək karikaturanı nümayiş etdirən müəllimin işdən azad olunduğunu və gələcəkdə bu kimi hadisələrin baş verməməsi üçün lazımi tədbirlərin görüləcəyini bildirib.

## LİVİYANIN XARİCİ İŞLƏR NAZİRİ POSTUNA İLK DƏFƏ QADIN TƏYİN EDİLİB

Liviyada xarici işlər naziri postuna ilk dəfə qadın təyin olunub. Bu vəzifə Nəcla əl-Mancuşa həvalə edilib. Ondan başqa, milli birlik hökumətinin tərkibində zərif cinsin daha bir nümayəndəsi var. Hüquqşünas Həlimə Əbdülrəhman ölkənin ədliyyə naziri təyin edilib.

Hər iki qadın nazir 2011-ci ildə Qəddafi rejiminin devrilməsindən sonra ölkənin keçid hökumətində çalışıb.

Nəcla əl-Mancuş jurnalistlərə müsahibəsində Liviyada qadınların mühüm postlara təyin edilməsini ilk addımlar kimi qiymətləndirib.

Baş nazir Əbdülhəmid Dbeybehin rəhbərlik etdiyi milli birlik hökumətinin



üzvləri Liviya parlamenti tərəfindən təsdiqlənib və onların andiçmə mərasimi keçirilib. Hazırda hökumətin müxtəlif strukturlarında çalışanların 15 faizi qadınlardır. Bu, Liviya üçün mühüm irəliləyiş hesab olunur.

# BMT DÜNYADA İSLAMOFOBİYANIN TƏHLÜKƏLİ ARTIMINA DAİR HESABAT HAZIRLAYIB



BMT-nin İnsan Hüquqları Şurası sürətlə böyüyən islamofobiya təhlükəsi və dünyadakı müsəlmanların təqiblərə məruz qalması ilə bağlı yeni hesabat yayımlayıb. Təkcə Avropada əhalinin artıq 40%-i müsəlmanlara qarşı mənfi münasibət bəsləyir. Bu barədə "religion-news" xəbər verib.

Hesabat müəllifləri dünyanın bir sıra ölkələrini, o cümlədən ABŞ və Çin hökumətlərini sərt şəkildə tənqid edərək onları islamofobiya ilə qətiyyətli mübarizəyə çağırıblar. BMT-nin din və etiqad azadlığı üzrə xüsusi məruzəçisi Əhməd Şahid mətbuat konfransında "Dini və etiqadi ayrı-seçkilik və dözümsüzlüyün aradan qaldırılması məqsədilə islamofobiyaya (müsəlmanlara nifrət) qarşı mübarizə" adlı hesabatın yayımlandığını elan edib.

Sosial Siyasət və Anlaşma İnstitutunun (ISPU) layihə rəhbəri Erum İkramullah islamofobiyanın artıq epidemiya dərəcəsinə çatdığını tanıyan bu yeni BMT hesabatını alqışladıqlarını bildirib və qeyd edib ki, Amerika müsəlmanları getdikcə daha çox dini diskriminasiyaya məruz qalır, son beş ildə bu rəqəmlər təxminən 60% artmışdır.

Hesabatda islamofobiyanın artması "yerli şərtlər, sinfi və etnik problemlər", eləcə də ifrat sağçı hərəkatların sürətlə böyüməsi ilə izah olunur. Digər bir amil isə "KİV-də müsəlmanların mənfi obrazda və birtərəfli işıqlandırılmasıdır".

Analitiklər Avropa Komissiyasının irqçilik və dözümsüzlüyə qarşı mübarizə hesabatına istinad edərək göstərirlər ki, 2016-2017-ci illər ərzində 600 min holland xəbərində müsəlmanlar ən çox "radikal", "ekstremist" və "terrorçular" sözləri ilə xarakterizə olunmuş, bunun qarşılığında hollandlar barəsində "tanınmış", "ağıllı" və "cəlbedici" sözləri işlənmişdir.

Hesabat müəllifləri bir sıra dövlətlərin "müsəlmanların din və etiqad azadlığını, onların digər təməl hüquqlarını məhdudlaşdıran, müsəlman icması və təşkilatlarının təhlükəsizliyini təmin etməyən" siyasətlərini kəskin tənqid atəşinə tutublar. Onlar hökumətləri hüquq mühafizə orqanlarından tutmuş sosial şəbəkələrə qədər bütün sahələrdə müsəlmanlara qarşı ayrı-seçkiliklə mübarizə aparmağa, dini icmaları konstruktiv dialoqa təşviq etməyə, hər səviyyədə maarifləndirmə proqramlarını gücləndirməyə çağırıblar. Onlar, həmçinin BMT-nin müxtəlif təşkilatları arasında tərəfdaşlıq yolu ilə islamofobiyaya qarşı mübarizə üçün hökumətlərarası səylərin gücləndirilməsini tələb ediblər.

# 135 YAŞLI KİLSƏ TƏLƏBƏ YATAQXANASININ TİKİNTİSİ MƏQSƏDİLƏ SÖKÜLÜB

"Catholicnewsagency" verdiyi məlumata görə, Fransada 135 illik Müqəddəs Yozef kilsəsi tələbə yataqxanasının tikintisinə yer açmaq məqsədilə sökülüb. Fransanın şimalında yerləşən bu kilsə yerli hakimiyyət orqanları tərəfindən yaxın aylarda sökülməsi nəzərdə tutulan bir neçə məbəddən birincisidir.

Müqəddəs Yozef kilsəsi 1880-1886-cı illərdə Lildəki yezuitlər tərəfindən tikilib və şəhər rəhbərliyi tələbələr üçün yeni binaya ehtiyacı olan Lill Katolik Universitetinin lehinə qərar çıxararaq məbədi söküb. Ancaq eyni memar - Avqust Murko tərəfindən inşa edilmiş və kilsəyə bitişik olan Ramo Sarayı tarixi memarlığın şah əsəri və mədəni irs obyekti kimi qorunaraq bərpa olunur.

Fransanın mədəni-tarixi irsinin qorunması ilə məşğul olan "Urgences patrimoine" təşkilatı Lildəki Müqəddəs



Yozef kilsəsinin xilası üçün 12.400 imza toplayıb. Məbədin binasının ölkənin qorunan tarixi irs siyahısına salınmasını tələb edən petisiya Fransa Mədəniyyət Nazirliyinə təqdim olunub. Lakin nazirlik "kilsə binasının sökülməsindən imtinanın ali təhsilin inkişafı üçün artıq 120 milyon avro maliyyə ayrıldığı böyük bir layihənin bağlanmasına səbəb olacağı" iddiası ilə müraciəti rədd edib.

Bundan başqa, XX əsrin əvvəllərində nəfis art-deko üslubunda inşa olunmuş Kale şəhərindəki Sen-Jermen-Kuzen kilsəsi, həmçinin 1902-ci ildə Trit-Sen-Lejedə ucaldılmış Sen-Sloi-dü-Puare kilsəsinin sökülməsi də planlaşdırılıb. Mədəni-tarixi abidələrin sökülməsinə biganə qala bilməyən yerli icmanın etiraz məktubları yazmasına, hökumət binalarını mühasirəyə almasına, mitinqlər təşkil etməsinə baxmayaraq, mövcud qanunlara görə, bütün kilsə mülkləri 1907-ci ildə Fransa hökuməti tərəfindən milliləşdirildiyindən, kilsə binalarının təmiri və ya sökülməsi barədə qərarlar yalnız yerli hakimiyyət orqanları tərəfindən verilir.

# XRİSTİANLARA "ALLAH" KƏLMƏSİNDƏN İSTİFADƏ ETMƏYƏ İCAZƏ VERİLDİ

Malayziyanın Ali Məhkəməsi 10 ildən çox davam edən məhkəmə davasından sonra ölkə xristianlarının öz dualarında, dini mətnlərində və ibadətlərində "Tanrı" sözünü ifadə etmək üçün "Allah" sözündən istifadə edə biləcəyinə dair qərar çıxarıb. Bu barədə "AsiaNews" məlumat verib.

Bu qərar hökumətin İslam ekstremistlərinin lehinə olan qadağasını ləğv edərək 30 ildən çox davam edən mübahisələrə son qoyur. Məhkəmə prosesinin başlamasından on üç il sonra hakim Nor Bi Ariffin Saravakiandan olan xristian qadın Cill Ayrlend Lourens Billə dini ayinlərində "Allah" sözünü istifadə etməsi üçün konstitusiya hüququ tanıyıb.

Xristian qadın 2008-ci ildə İndoneziyadan Kuala-Lumpur hava limanına gələrkən yanındakı səkkiz ədəd maarifləndirici CD-nin ələ keçirilməsindən sonra məsələ məhkəməlik olmuşdu. 2014-cü ildə məhkəmə disklərin ələ keçirilməsini qeyri-qanuni saymış və növbəti il materiallar Lourens Billə qaytarılmışdı. Ancaq "Allah" kəlməsi həll olunmamışdı.

Qeyd edək ki, 28 milyonluq Malayziya əhalisinin 60%-i müsəlmanlardır. 2,6 milyon nəfərdən çox olan xristianlar isə (buddistlərdən sonra) üçüncü böyük dini qrupdur.

# DÜNYANIN ƏN GÖZƏL MƏBƏDLƏRİNDƏN BİRİ YANĞINDAN MƏHV OLUB



Meksikanın Miçoakan ştatındakı Nurio qəsəbəsində yerləşən Müqəddəs Həvari Yakob məbədi yanğın nəticəsində dağılıb. Məbədlə birlikdə orada saxlanılan, qitənin yerli əhalisinə aid edilən şah əsərlər də məhv olub. Bu barədə xəbəri "catholicnewsagency" yayıb.

1639-cu ildə ucaldılmış məbədin binasında ölkənin qədim əhalisinin əvəzsiz sənət nümunələri toplanmış və uzun əsrlər boyu qorunmuşdu. İndi isə məbəddən geriyə yalnız yanmış və qismən çökmüş xarici divarlar qalıb, günbəz və daxili bəzək tamamilə məhv olub.

Yanğının səbəbi hələlik məlum deyil. Ən çox zərər məbədin dam örtüyünə və tağ-tavanına dəyib.

Meksikada yaşayan purepeça qəbiləsinin incəsənət nümunələrinin saxlanıldığı yeganə məbəd olan Müqəddəs Həvari Yakob məbədi dünyanın ən gözəl və orijinal məbədlərindən biri hesab olunurdu.

# ROMA PAPASI LATERAN SARAYINI MUZEY KİMİ BAĞIŞLADI

"Catholicnewsagency"-nin xəbərinə görə, Papa Fransisk Romanın cənub-şərqində yerləşən, uzun əsrlər boyu papaların iqamətgahı olmuş Lateran Sarayını muzey kimi bağışlayıb.

Roma vikarisi, kardinal Ancelo de Donatisə göndərdiyi məktubda Papa Kilsənin gözəlliyini və mədəni irsini təbliğ etmək və qorumaq adına Lateran Sarayını muzey və mədəni fəaliyyət üçün bağışladığını vurğulayıb. De Donatis Roma Yeparxiyasının vəkili qismində Vatikan şəhər-dövlətinin məsul xidmətləri ilə birlikdə sarayın təhvil verilməsi prosesini təşkil etməlidir.

İndiki Lateran Sarayı Roma İmperiyası dövründə "Domus Laterani" - Plauti Laterani ailəsinin evi kimi inşa edilmişdi. İmperator Konstantin IV əsrdə bu evi



Roma yepiskopunun mülkiyyətinə vermişdi. O vaxtdan bəri papaların Avinyon əsirliyinə və XIV əsrdə onların Vatikana qayıtmasına qədər bura Papa iqamətgahı kimi xidmət göstərmişdir. Uzun əsrlər boyu bu tikili Lateran Patriarxlığının qərargahı olmuşdur. 1929-cu ildə Lateran müqaviləsinin imzalanması ilə saray və bazilika Müqəddəs Taxt-Tacın eksterritorial mülkiyyətinə çevrilmişdir.

Bu gün Vatikanın tarix muzeylərinə aid olan tarixi sərvətin böyük hissəsi, o cümlədən papaların portretləri, papa qvardiyasının xatirə əşyaları və papaların məişət əşyaları sarayda saxlanılır. Roma Vikariatlığının bəzi inzibati idarələri və Yeparxiya vikarisinin mənzilləri də bu binadadır.

# CƏMİYYƏT və DİN

№ 03 (353) MART 2021-ci il


## DÖVLƏT KOMİTƏSİ DİNİ İCMA ÜZVLƏRİ ARASINDA MÜSABİQƏ ELAN EDİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98 illiyinə həsr olunmuş "Heydər Əliyev irsi: Azərbaycanda dövlət-din münasibətləri" mövzusunda dini icma üzvləri arasında yazı müsabiqəsi elan edir.

Müsabiqəyə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra dövlət-din münasibətləri sahəsində yürüdülən siyasətdən, xalqın keçmişinə, milli-mənəvi dəyərlərinə dövlət səviyyəsində göstərilən qayğıdan, o cümlədən tolerant və multikultural dəyərlərimizin gələcək nəsillərə çatdırılmasının əhəmiyyətindən bəhs edən məqalələr göndərilə bilər. Eyni zamanda, yazılarda Ulu Öndərin hakimiyyəti dövründə milli-mənəvi dəyərlərimizin ən əhəmiyyətli komponentlərindən olan dini abidələrimizin təmiri, bərpası və yenidən inşası, dini-ideoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə atılan zəruri addımlar, dini radikalizm və ekstremizmin ölkəmizə ayaq açmasının qarşısının alınması istiqamətində görülən işlər öz əksini tapa bilər.

**Müsabiqənin şərtləri**

- Yazı mövzuya uyğun olmalıdır;
- Yazının həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- Yazı qəzetdə dərc olunarsa: A4 formatlı vərəqlərdə (Times New Roman 14 şrift) və 1 nüsxə qəzet şəklində Dövlət Komitəsinə təqdim olunmalıdır;
- Yazı elektron media resursunda yayımlanarsa: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) link əlavə edilərək çap olunmalı və Dövlət Komitəsinə təqdim edilməlidir.

**Mükafat**

I yer – 500 AZN
II yer – 400 AZN
III yer – 300 AZN
Hər biri 100 manat olmaqla üç həvəsləndirici mükafat

**Müsabiqənin müddəti:** Yazılar 2021-ci il 20 aprelədək təqdim edilməlidir.

**Ünvan:** Bakı şəhəri, Əhməd Cavad küç., 16
Əlaqə telefonları: (012) 437-31-15 / (012) 505-78-19
E-mail: redaksiya@scwra.gov.az

## KƏTAN ÜZƏRİNDƏ ƏN BÖYÜK RƏSM 62 MİLYON DOLLARA SATILIB



Dubaylı rəssam Saşa Cəfrinin kətan üzərində yaratdığı dünyanın ən böyük rəsm əsəri 62 milyon dollara satılıb.

17 min kvadratfut (1579 kvadratmetr) sahəsi olan kətan üzərində çəkilən "Bəşəriyyətin səyahəti" adlı bu nəhəng tablo 70 hissəyə bölünərək hərraca çıxarılıb.

Hərracdan sonra keçirilən mətbuat konfransında bəyan edilib ki, rəssam satışdan əldə etdiyi gəliri UNESCO, UNICEF və "Dubai Cares" təşkilatlarının xeyriyyə tədbirlərinə sərf edəcək.

"Palm in Dubai" incəsənət mərkəzində keçirilən xeyriyyə hərracından sonra jurnalistlərə müsahibə verən rəsm əsərinin alıcısı Andre Abdun qeyd edib ki, uşaqlıq illərində ailəsi aclıq keçirib və həyatının amalı öz atasına, uşaqlarına xidmət etmək olub. O əlavə edib ki, satışdan əldə olunan gəliri kimsəsiz və yoxsul uşaqlar üçün xərcləmək barədə rəssam Saşa Cəfri ilə razılaşıb.

Hərracda satılan rəsm əsəri kətan üzərində ən böyük tablo kimi "Ginnesin Rekordlar Kitabı"na daxil edilib.

Ya əliyyu ya əzim, ya ğafuru ya rəhim, əntər-rəbbul-əzim, əlləzi ləysə kəmislihi şəy və huvəs-səmiul-bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur, və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə və huvə şəhru ramazan əlləzi ənzəltə fihil-quran, hudəl-linnasi və bəyyinatin minəl-huda vəl-furqan, və cəəltə fihi ləylətəl-qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fəya-zəl mənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən-nar, fi mən təmunnu ələyhi və ədxilnil-cənnəh, birəhmətikə ya ərhəmər-rahimin.

**Bismillahir Rəhmanir Rəhim**

Allahummə ləkə sumtu və bikə aməntu və ələykə təvəkkəltu və əla rizqikə əftərtu və sauməl-ğədi min şəhri Ramazanə nəvəytu, fəğfirli ma qəddəmtu və ma əxxərtu.

Allahummə ədxil əla əhlil-quburis-surur, Allahummə əğni kullə fəqir, Allahummə əşb'i kullə ca'i, Allahumməksu kullə uryan, Allahumməqzi dəynə kulli mədin, Allahummə fərric ən kulli məkrub, Allahummə ruddə kullə ğərib, Allahummə fukkə kullə əsir, Allahummə əslih kullə fasidin min umuril-muslimin, Allahumməşfi kullə məriz, Allahummə suddə fəqrəna biğinak, Allahummə ğəyyir suə halina bihusni halik, Allahumməqzi ənnəd-dəynə və əğnina minəl-fəqr, innəkə əla kulli şəyin qədir.

**QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ**



**2021 - 1442**

## RAMAZAN AYININ TƏQVİMİ

**Bakı**

| Həftənin günləri | Hicri ayı | Miladi ayı | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Gün batır | Məğrib azanı | İşa azanı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Çərşənbə | 01 Ramazan | 14 Aprel | 04:30 | 04:40 | 06:05 | 12:41 | 17:22 | 19:18 | 19:32 | 20:37 |
| Cümə axşamı | 02 Ramazan | 15 Aprel | 04:28 | 04:38 | 06:03 | 12:41 | 17:23 | 19:19 | 19:33 | 20:39 |
| Cümə | 03 Ramazan | 16 Aprel | 04:26 | 04:36 | 06:02 | 12:41 | 17:23 | 19:20 | 19:34 | 20:40 |
| Şənbə | 04 Ramazan | 17 Aprel | 04:24 | 04:34 | 06:00 | 12:40 | 17:24 | 19:21 | 19:36 | 20:41 |
| Bazar | 05 Ramazan | 18 Aprel | 04:22 | 04:32 | 05:59 | 12:40 | 17:25 | 19:22 | 19:37 | 20:42 |
| Bazar ertəsi | 06 Ramazan | 19 Aprel | 04:21 | 04:31 | 05:57 | 12:40 | 17:25 | 19:23 | 19:38 | 20:44 |
| Çərşənbə axş. | 07 Ramazan | 20 Aprel | 04:19 | 04:29 | 05:56 | 12:40 | 17:26 | 19:24 | 19:39 | 20:45 |
| Çərşənbə | 08 Ramazan | 21 Aprel | 04:17 | 04:27 | 05:54 | 12:39 | 17:27 | 19:25 | 19:40 | 20:46 |
| Cümə axşamı | 09 Ramazan | 22 Aprel | 04:15 | 04:25 | 05:53 | 12:39 | 17:27 | 19:26 | 19:41 | 20:48 |
| Cümə | 10 Ramazan | 23 Aprel | 04:14 | 04:24 | 05:51 | 12:39 | 17:28 | 19:27 | 19:42 | 20:49 |
| Şənbə | 11 Ramazan | 24 Aprel | 04:12 | 04:22 | 05:50 | 12:39 | 17:28 | 19:28 | 19:43 | 20:50 |
| Bazar | 12 Ramazan | 25 Aprel | 04:10 | 04:20 | 05:49 | 12:39 | 17:29 | 19:29 | 19:44 | 20:52 |
| Bazar ertəsi | 13 Ramazan | 26 Aprel | 04:08 | 04:18 | 05:47 | 12:39 | 17:30 | 19:30 | 19:45 | 20:53 |
| Çərşənbə axş. | 14 Ramazan | 27 Aprel | 04:07 | 04:17 | 05:46 | 12:38 | 17:30 | 19:31 | 19:46 | 20:55 |
| Çərşənbə | 15 Ramazan | 28 Aprel | 04:05 | 04:15 | 05:44 | 12:38 | 17:31 | 19:32 | 19:47 | 20:56 |
| Cümə axşamı | 16 Ramazan | 29 Aprel | 04:03 | 04:13 | 05:43 | 12:38 | 17:31 | 19:33 | 19:48 | 20:57 |
| Cümə | 17 Ramazan | 30 Aprel | 04:02 | 04:12 | 05:42 | 12:38 | 17:32 | 19:34 | 19:50 | 20:59 |
| Şənbə | 18 Ramazan | 01 May | 04:00 | 04:10 | 05:41 | 12:38 | 17:33 | 19:35 | 19:51 | 21:00 |
| Bazar | 19 Ramazan | 02 May | 03:58 | 04:08 | 05:39 | 12:38 | 17:33 | 19:36 | 19:52 | 21:01 |
| Bazar ertəsi | 20 Ramazan | 03 May | 03:57 | 04:07 | 05:38 | 12:38 | 17:34 | 19:38 | 19:53 | 21:03 |
| Çərşənbə axş. | 21 Ramazan | 04 May | 03:55 | 04:05 | 05:37 | 12:37 | 17:34 | 19:39 | 19:54 | 21:04 |
| Çərşənbə | 22 Ramazan | 05 May | 03:53 | 04:03 | 05:36 | 12:37 | 17:35 | 19:40 | 19:55 | 21:06 |
| Cümə axşamı | 23 Ramazan | 06 May | 03:52 | 04:02 | 05:34 | 12:37 | 17:35 | 19:41 | 19:56 | 21:07 |
| Cümə | 24 Ramazan | 07May | 03:50 | 04:00 | 05:33 | 12:37 | 17:36 | 19:42 | 19:57 | 21:08 |
| Şənbə | 25 Ramazan | 08 May | 03:49 | 03:59 | 05:32 | 12:37 | 17:37 | 19:43 | 19:58 | 21:10 |
| Bazar | 26 Ramazan | 09 May | 03:47 | 03:57 | 05:31 | 12:37 | 17:37 | 19:44 | 19:59 | 21:11 |
| Bazar ertəsi | 27 Ramazan | 10 May | 03:46 | 03:56 | 05:30 | 12:37 | 17:38 | 19:45 | 20:00 | 21:12 |
| Çərşənbə axş. | 28 Ramazan | 11 May | 03:44 | 03:54 | 05:29 | 12:37 | 17:38 | 19:46 | 20:01 | 21:14 |
| Çərşənbə | 29 Ramazan | 12 May | 03:43 | 03:53 | 05:28 | 12:37 | 17:39 | 19:47 | 20:02 | 21:15 |

**Şəvval ayının 1-i (13 may) Fitr (Ramazan) bayramıdır.**

## Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr (Dini qurumların dövlət reyestri) məlumatları

**"Gürcü Yəhudilərinin Bakı" dini icması**

**Qeydiyyat tarixi:** 25 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A3-136

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Çaruxçev Abik Davidoviç, Qorelaşvili Şalum Davidoviç, Maşaşvili Vladimir Mixayloviç, Qaznelaşvili Mixail Yakovleviç, Davidaşvili Zurab Semyonoviç, Dvalişvili Aleksandr Yermalayeviç, Palaqaşvili Mark Şalamoviç, Rakataşvili Aleksandr Borisoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Datikoşvili Samson Cumberiyeviç, İsayev Ramiz İdris oğlu, Babayev Samir Tağı oğlu, İsakov Elçin Davidoviç, Muşailov Boris Yuryeviç, Abramov Marif İxiloviç, Xanikayev Eli Rəşid oğlu, Ağayev Ağayi Semyonoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Çaruxçev Abik Davidoviç dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

İsayev Ramiz İdris oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** **09 mart 2021-ci il**

### Yadigar söz

*Konfutsi*

*Kamil insan gözəl söz söyləyə bilən insan deyil, söylədiyini edən və edə bildiyini söyləyən insandır.*


**Baş redaktor** Səyyad ARAN

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
**Telefon:** 505 78 16; 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**

Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poligraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894